

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 28 fevral 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


**BDU və Portuqaliyanın Lissabon Universitetinin Ali Texniki İnstitutu arasında əməkdaşlıq müqaviləsi** ➔Səh.2

**BDU Çexiyanın Karlova Universiteti ilə Erasmus mübadilə protokolu imzalayıb** ➔Səh.2

**"Açıq hava turizm fəaliyyətində beynəlxalq təcrübənin öyrənilməsi" mövzusunda elmi seminar** ➔Səh.7

**"İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub** ➔Səh.7

**"Gənc istedadlar" liseyinin şagirdləri "Sabahın alimləri" XI Respublika müsabiqəsinin qalibləri sırasında** ➔Səh.8

**BDU-da Milli Qəhrəman Mübariz İbrahimovun doğum gününə həsr olunmuş tədbir keçirilib** ➔Səh.9



**Elmi Şuranın növbəti iclası keçirilib** ➔Səh.2



**BDU-nun rektoru Almaniya DAAD təqaüd proqramının regional direktoru ilə görüşüb** ➔Səh.3



**"Xocalı simfoniyası" adlı musiqili anım tədbiri keçirilib** ➔Səh.4




**Professor İzzət Rüstəmovun 90 illiyinə həsr olunmuş Respublika elmi konfransı** ➔Səh.10



**"Zəfər kuboku" turnirinin üçüncüsü olan BDU-nun futzal komandası ilə görüş keçirilib** ➔Səh.14




## BDU-da Azərbaycan Gəncləri Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, tarixi zəfərlə başa çatan Vətən müharibəsində şəhid olan soydaşlarımızın unudulmaz xatirəsi bir dəqiqəlik sükutla anılıb.***

Tədbirdə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev ölkəmizdə Gənclər Gününün qeyd edilməsinin, bu sahədə dövlət siyasətinin formalaşdırılmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Qeyd edib ki, hər bir ölkədə gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Yarandığı gündən ölkəmizin bütün həyatında misilsiz xidmətlər göstərən Bakı Dövlət Universiteti bu gün də ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak edən, dövlətçiliyin daha da möhkəmləndirilməsinə töhfələr verən, vətənpərvərlik ruhunda tərbiyə edilən yüksəkixtisaslı mütəxəssis-gənclər yetişdirir. Dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində öz gücünə, istedadına inam hissini artırır. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə xalqımıza parlaq qələbə sevincini yaşadan, canı və qanı bahasına ən yeni tarix yazaraq əzəli torpaqlarımızı işğaldan azad edən qəhrəman övladlarımızı da xüsusi xatırlayıb.

Sonra Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Politologiya və sosiologiya kafedrasının gənc müəllimi Nuran Məmmədli, Hüquq fakültəsinin I kurs tələbəsi, şahmat üzrə Avropa çempionu Uğur İlyaslı çıxış edərək tələbə-gəncləri təbrik ediblər.

Çıxışçılar Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətin apardığı gənclər siyasətinin rolundan bəhs ediblər.

Tədbirdə BDU-nun elan etdiyi 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub. BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, BDU artıq 2 ildir ki, ənənəvi olaraq, 2 fevral-Gənclər günü münasibətilə "İlin gənc alimi" müsabiqəsi elan edir və müsabiqənin qalibləri Gənclər günündə elan olunur. Müsabiqənin nəticələrinə əsasən Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli humanitar və ictimai elmlər üzrə, Kimya fakültəsinin əməkdaşı Gülnar Süleymanova isə təbiət və texnika elmləri üzrə I yerə layiq görülüb.

Daha sonra BDU-nun rektoru Elçin Babayev Universitetin ictimai həyatında fəal iştirak edən tələbələrə təşəkkürnamələr, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov isə BDU-nun yaradıcı tələbələrinə fəxri diplomlar təqdim ediblər.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin tələbələrlə birgə hazırladığı konsert proqramı ilə davam edib.





# Elmi Şuranın növbəti iclası keçirilib

***Bakı Dövlət Universitetində Elmi Şuranın növbəti iclası keçirilib. Şuranın sədri, rektor Elçin Babayev gündəlikdəki məsələləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.***

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor Fərda İmanov 2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri haqqında məlumat verib. Qeyd edilib ki, payız sessiyası əyani təhsil formasında təhsilalanlar üçün yazılı və şifahi dialoq formasında, tədrisə əyani formada cəlb edilə bilməyən əcnəbi tələbələr üçün distant formada təşkil olunub. İmtahan sessiyasının gedişinə operativ nəzarət həyata keçirilib. Bu imtahan sessiyasında 24462 nəfər tələbə iştirak edib. Payız sessiyası üzrə keyfiyyət göstəricisi 38 faiz, müvəffəqiyyət göstəricisi isə 74 faiz olub. Rektor Elçin Babayevin əmri ilə xüsusi imtahan qərargahı və Apellyasiya Komissiyası yaradılıb. Apellyasiya Komissiyasına daxil olan şikayətlərin operativ araşdırılması üçün "qaynar xətt", xüsusi e-mail ünvanı, "WhatsApp" nömrəsi yaradılıb.

Daha sonra BDU-nun Qazax filialının direktoru Arif Rüstəmov, BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin direktoru Səhər Orucova, Apellyasiya Komissiyasının sədri Elşad Qurbanov imtahan sessiyası haqqında məlumat veriblər.

Elmi Şuranın iclasında 2021/2022-ci tədris ilinin yaz semestrinin də payız semestrində olduğu kimi, həftənin 2 günü onlayn, 3 günü ənənəvi qaydada olmaqla, hibrid formada təşkil edilməsi barədə qərar qəbul olunub.

İclasda BDU-nun Vətən müharibəsində iştirak etmiş tələbələrinin əlavə qruplar üzrə təhsil xərclərinin BDU büdcəsindən ödənilməsi barədə də qərar qəbul olunub. Rektor Elçin Babayev qeyd edib ki, Vətən müharibəsində iştirak etmiş BDU tələbələrinin təhsil problemləri diqqətlə təhlil edilir, onlara pedaqoji, metodiki dəstəyin göstərilməsi istiqamətində müntəzəm iş aparılır. BDU Elmi Şurasının 2021-ci il 3 fevral tarixli iclasının qərarı ilə Vətən müharibəsi iştirakçısı olmuş alt qruplarda təhsil alan tələbələrin ödənişləri təhsil müəssisəsinin büdcəsindən ödənilir. Həmçinin müharibə iştirakçısı olan tələbələrin təhsil problemlərini həll etmək üçün qanunvericiliyə uyğun bütün şərait yaradılır.

İclasda həmçinin 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "İlin alimi" nominasiyası üzrə müsabiqə elan olunması haqqında məlumat verilib. Qeyd edilib ki, ikinci ildir keçirilən müsabiqə BDU alimlərinin fəaliyyətini stimullaşdırmaq məqsədi daşıyır.

İclasda həmçinin 2022-ci il üçün BDU-nun nəşr planı təsdiq edilib. İclasın sonunda Universitetin ictimai həyatında aktiv iştirak edən 16 könüllüyə təşəkkürnamələr təqdim olunub.

## BDU və Portuqaliyanın Lissabon Universitetinin Ali Texniki İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Fevralın 15-də Bakı Dövlət Universiteti və Portuqaliyanın Lissabon Universitetinin Ali Texniki İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun prorektoru Fərda İmanov və Lissabon Universiteti Ali Texniki İnstitutunun prezidenti Rogerio Colaço imzalayıb.

Əməkdaşlıq müqaviləsində birgə elmi tədqiqat, konfrans, təhsil proqramları və təlimlərin təşkili, həmçinin, bakalavr, magistr və tədqiqatçıların qarşılıqlı mübadiləsi nəzərdə tutulur. Bu isə gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsini təmin edəcək.

Portuqaliyanın Lissabon Universitetinin Ali Texniki İnstitutunun əsası 1911-ci ildə qoyulub, İnstitutda 10987 tələbə təhsil alır. Universitetdə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

## BDU Çexiyanın Karlova Universiteti ilə Erasmus mübadilə protokolu imzalayıb

***Fevralın 17-də Bakı Dövlət Universiteti ilə Çexiyanın Karlova Universiteti arasında Erasmus mübadilə protokolu imzalanıb.***

Protokol tələbə, akademik və inzibati heyətin qarşılıqlı mübadiləsini nəzərdə tutur.

Protokolu BDU-nun Bilogiya fakültəsinin dekanı Afət Məmmədova və Çexiyanın Karlova Universitetinin İnkişaf və xarici əlaqələr üzrə dekan müavini Ales Soukup imzalayıb.

Əsası 1348-ci ildə qoyulmuş Karlova Universiteti Çex Respublikasının və dünyanın ən qədim universitetlərindən biridir. 45 000-dən çox tələbənin təhsil aldığı universitetin 17 fakültəsində müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Karlova Universiteti QS WUR reytinqində 266-ci pillədədir.



## BDU Almaniyanın Berlin Humboldt Universiteti ilə Erasmus mübadilə protokolu imzalayıb

***Fevralın 16-də BDU ilə Almaniyanın Berlin Humboltd Universiteti arasında Erasmus mübadilə protokolu imzalanıb.***

Müqaviləni BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov və Berlin Humboldt Universitetinin Erasmus layihə koordinatoru Johann Comolle imzalayıb. Müqavilə çərçivəsində bakalavr, magistrant, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur. Bu isə gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsinə təkan verəcək.

Əsası 1810-cu ildə qoyulmuş Berlin Humbolt Universiteti Almaniyanın nüfuzlu universitetlərindən biridir. 35000-dən çox tələbənin təhsil aldığı universitetdə 9 fakültədə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Berlin Humbolt Universiteti QS WUR reytinqində 128-ci pillədədir.

# 2 fevral - Azərbaycan Gəncləri Günüdür

***Bu əlamətdar tarixi gün gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.***

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.

Dahi rəhbər Heydər Əliyev müasir və müstəqil Azərbaycanı qurduqdan sonra da gənclər siyasətini böyük şövqlə davam etdirdi. 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının keçirilməsi, 1999-cu ildə dövlət gənclər siyasəti haqqında Fərmanın imzalanması Heydər Əliyevin gənclərə böyük qayğısının təzahürü idi.

Dahi rəhbər Heydər Əliyevin çətinliklə formalaşdırdığı gənclər siyasəti bu gün özünün ən uca məqamına çatıb. Cənab Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətini qəbul etdiyi bütün qərarları ilə yüksək səviyyədə davam etdirir.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" qəbul olunmuş və bununla hər təbəqədən olan gənclərin xaricdə təhsil almasına şərait yaranmışdır. Cənab Prezident İlham Əliyevin 2007-ci ili "Gənclər ili" elan etməsi nəinki gənclərdə, həmçinin də bütün xalqın həyatındakı fəallığını xeyli artırmışdır.

Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzalayıb.

Hamıya yaxşı məlumdur ki, Bakı Dövlət Universiteti yarandığı gündən ölkəmizin bütün həyatında misilsiz xidmətlər göstərib. Elmi və tədris fəaliyyəti ilə yanaşı, Universitet bu gün də ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak edən, dövlətçiliyin daha da möhkəmləndirilməsinə, milli şüur və düşüncə tərzinin formalaşmasına önəmli töhfələr verən, vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksəkixtisaslı mütəxəssis-gənclər yetişdirir.

Azad edilən torpaqlarımızda görüləcək quruculuq-abadlıq işlərində, doğma diyarımızın yenidən çiçəklənməsində gənclərimizin də iştirakı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan gənclərinin ölkə həyatında yüksək fəallığı, vətənpərvərliyi, dövlətə və Vətənə bağlılığı onların bu prosesdə də fəal iştirak edəcəklərini deməyə güclü əsas yaradır.

Bir daha Azərbaycan Gəncləri Günü münasibəti ilə hər bir gənci, xüsusilə BDU ailəsinin gənc məzun və tələbələrinin hər birini ürəkdən təbrik edirik!

# BDU-nun rektoru Almaniya DAAD təqaüd proqramının regional direktoru ilə görüşüb

*Fevralın 17-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Alman Akademik Mübadilə Xidmətinin (DAAD) regional direktoru Gebhard Reulla görüşüb.*

Rektor Elçin Babayev Azərbaycan və Almaniya universitetləri arasında tələbə və professor-müəllim mübadiləsinin, birgə elmi-tədqiqat proqram və layihələrinin həyata keçirilməsinin vacibliyini vurğulayıb. BDU ilə Almaniyanın müxtəlif universitetlərinin sosial, humanitar, dəqiq və təbiət elmləri sahəsində ikili diplom proqramları əsasında kadr hazırlığı aparılmasının ölkələrimiz arasında elm və təhsil sahəsində əlaqələrin gücləndirilməsinə xidmət edəcəyi qeyd olunub. Rektor elmin prioritet istiqamətləri üzrə qısamüddətli və uzunmüddətli qarşılıqlı elmi ezamiyyətlərin, birgə yay və qış məktəblərinin təşkil olunmasını da təklif edib.



DAAD-ın regional direktoru Gebhard Reul isə BDU-nun tələbə və gənc tədqiqatçıları üçün Almaniya universitetlərində müvafiq proqramlar üzrə təhsil almaq, araşdırmalar aparmaq, universitetin professor-müəllim heyəti və elmi işçilərinə əməkdaşlıq əlaqələrinin qurulmasına kömək məqsədilə seminarların keçiriləcəyini bildirib. O, eyni zamanda qeyd edib ki, DAAD mütəxəssisləri tərəfindən BDU tələbələri və müəllimləri üçün alman dilinin öyrənilməsi və mükəmməlləşdirilməsi xidməti də göstərilə bilər.

# Kimya fakültəsi və Portuqaliyanın Lissabon Universitetinin Ali Texniki İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb

*Fevralın 15-də Bakı Dövlət Universitetinin Kimya fakültəsi və Portuqaliyanın Lissabon Universitetinin Ali Texniki İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.*

Müqaviləni BDU-nun prorektoru Fərda İmanov və Lissabon Universiteti Ali Texniki İnstitutunun prezidenti Rogerio Colaço imzalayıb.

Əməkdaşlıq müqaviləsində Kimya fakültəsi ilə birgə elmi tədqiqat, konfrans, təhsil proqramları və təlimlərin təşkili, həmçinin, bakalavr, magistr və tədqiqatçıların qarşılıqlı mübadiləsi nəzərdə tutulur. Bu isə gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsini təmin edəcək.Portuqaliyanın Lissabon Universitetinin Ali Texniki İnstitutunun əsası 1911-ci ildə qoyulub, İnstitutda 10987 tələbə təhsil alır. Universitetdə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

# BDU-nun təklifi ilə ABŞ-ın "Blackboard" rəqəmsal tədris platformasının Azərbaycan dilində variantı da istifadəyə veriləcək

## Fevralın 18-də Bakı Dövlət Universitetində Amerika Birləşmiş Ştatlarının təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində dünya lideri olan "Blackboard" şirkətinin nümayəndələri ilə hesabat xarakterli görüş keçirilib

*Görüşdə "Blackboard" şirkətinin regional vitse-prezidenti Xuan Aleqret, regional layihə rəhbəri Bazel Abu-Xiran, şirkətin nümayəndəsi Mustafa Güçlü, BDU-nun rektoru Elçin Babayev, ADA Universitetinin prorektoru Vəfa Kazdal, BDU rektorunun strateji inkişaf və əlaqələr üzrə müşaviri Əli Nağıyev, ADA Universitetinin Fakültə işləri və akademik idarəetmə üzrə direktoru Samirə Rəsulova, "Blackboard" layihəsinin BDU-da tətbiqi üzrə layihə meneceri Şəbnəm Səfərova iştirak edib.*

Rektor Elçin Babayev bu elektron platformanın BDU-da tətbiq olunması üçün layihənin təşəbbüskarı və dəstəkçisi olan ADA Universitetinin rəhbərliyinə təşəkkürünü bildirib. O, layihənin BDU-ya qazandırdığı üstünlüklər barədə məlumat verib. Rektor vurğulayıb ki, BDU "Blackboard" platforması ilə



2021-ci ilin martından əməkdaşlığa başlayıb. İndiyədək BDU tərəfindən platformada 12570 kurs və 27275 istifadəçi qeydiyyatdan keçib. Onlardan 23 minə yaxını tələbə, qalanı isə akademik və inzibati heyətdir.

"Blackboard" şirkətinin regional vitse-prezidenti Xuan Aleqret təmsil etdiyi şirkətin BDU ilə uzunmüddətli əməkdaşlıqda maraqlı olduğunu bildirib.

Şirkətin regional layihə rəhbəri Bazel Abu-Xiran isə qeyd edib ki, bu ilin ikinci rübündə "Blackboard" sisteminin audio-video funksiyalarında ediləcək yenilənmələr sayəsində platformanın gücü daha da artacaq, internet sürətinin dəyişməsindən yaranan problemlər ciddi şəkildə azalacaq.

Görüşdə məlumat verilib ki, BDU-nun təklifi ilə bu ilin aprel-may aylarında sistemin Azərbaycan dilində variantı da istifadəyə veriləcək.

Görüşün sonunda ADA və BDU arasında "Blackboard"un tətbiqi ilə bağlı əməkdaşlığın genişlənməsi və universitet həyatlərinin bu sahədə birgə fəaliyyətləri də müzakirə olunub.

Qeyd edək ki, "Blackboard" - tədrisin idarəedilməsi proqramının istifadəsi BDU-da "Blackboard EdTech" ekosisteminə daxil olan "bulud platforması" vasitəsilə tələbələrin və müəllimlərin elektron məlumat bazasının yaradılması, tədris prosesinin və təhsilin məzmununun elektron idarəedilməsi, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə imkan yaradır.




# BDU-da dekan seçkiləri başa çatıb

## Bakı Dövlət Universitetinin 12 fakültəsində səlahiyyət müddəti bitmiş dekan vəzifələrinə seçkilər başa çatıb.

*Seçkilər Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na uyğun olaraq səsvermə yolu ilə keçirilib.*

*Yeni seçilmiş dekanları təqdim edirik:*

Mamoy Mansurov - Geologiya fakültəsi,

Ələmdar Bayramov - Kitabxanaçılıq-informasiya fakültəsi,

Rövşən Cavadov - Sosial elmlər və psixologiya fakültəsi,

Afət Məmmədova - Biologiya fakültəsi,

Ziyatxan Əliyev - Mexanika-riyaziyyat fakültəsi,

İbrahim Zeynalov - Tarix fakültəsi,

Bəxtiyar Paşayev - Fizika fakültəsi,

Elçin Məmmədov - Filologiya fakültəsi,

Aydan Xəndan - Şərqşünaslıq fakültəsi,

Laçın Abışlı - Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi,

Fuad Kərimli - Kimya fakültəsi,

Akif Ağbabalı - Ekologiya və torpaqşünaslıq fakültəsi.

# "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində təqdimat

***Fevralın 18-də Bakı Dövlət Universitetində Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə aparılan "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində təqdimat keçirilib.***

Tədbir Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov erməni millətçi-şovinistləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə, soyqırım siyasətindən bəhs edib. O, bu mənfur siyasətin davamı olaraq, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni qəsbkarlarının Azərbaycanın Xocalı şəhərinə hücum edərək, azərbaycanlılara qarşı törətdikləri qanlı soyqırım aktının insanlığa qarşı ən qatı cinayətlərdən biri kimi tarixə həkk olunduğunu vurğulayıb.





"Xocalıya ədalət" beynəlxalq kampaniyasının əməkdaşı Cəbrayıl Fərzəliyev təqdimatla çıxış edərək Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılmasının Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasət kursunda mühüm yer tutduğunu, dövlət başçısının bu istiqamətdə həyata keçirdiyi tədbirləri diqqətə çatdırıb. O, Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, beynəlxalq səviyyədə tanıdılması məqsədilə Heydər Əliyev Fondu tərəfindən fəal və məqsədyönlü işlər barəsində tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə faciənin canlı şahidi Valeh Hüseynov Xocalı qətliamının dəhşətləri ilə bağlı təəssüratlarını bölüşüb. O, gələcəkdə belə faciələrin baş verməməsi üçün Xocalı ilə bağlı həqiqətlərin daha geniş ictimaiyyətə çatdırılmasının zəruriliyini vurğulayıb.

# "Xocalı simfoniyası" adlı musiqili anım tədbiri keçirilib





***Fevralın 23-də Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş "Xocalı simfoniyası" adlı musiqili anım tədbiri keçirilib.***

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Xocalı soyqırımının dəhşətləri ilə bağlı Azərbaycan Televiziyasının hazırladığı "Tarixin izi ilə" sənədli filmi nümayiş olunub. 20 dəqiqəlik filmin ssenari müəllifi BDU-nun Jurnalistika fakültəsinin müəllimi Mahir Qəribovdur.



Sonra isə "Xocalı simfoniyası" adlı musiqili kompozisiya təqdim edilib. ADMİU-nun xalq çalğı alətləri orkestri və BDU-nun xor kollektivinin ifasında Dövlət himni ifa olunub.

Filologiya fakültəsinin tələbəsi Cahan Salmanova tanınmış şair Nurəngiz Günün "Xocalı simfoniyası" poemasını səsləndirib. Musiqili kompozisiya tələbələrin Azərbaycan bəstəkarlarının vətənpərvərlik mövzusunda əsərlərinin ifası ilə davam edib.



# BDU-nun Qazax filialında Xocalı soyqırımının 30-cu ildönümü anılıb

***Fevralın 23-də Bakı Dövlət Universitetinin (BDU) Qazax filialında Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə filialın foyesində təşkil olunmuş "Xocalı soyqırımı" adlı foto və kitab sərgisinə baxıblar. Sonra Azərbaycanın müstəqilliyi uğrunda həlak olan şəhidlərimizin və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU Qazax filialının direktoru Arif Rüstəmov Xocalı soyqırımı barədə tədbir iştirakçılarına geniş məlumat verib. Bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərini işğal edərək, azərbaycanlılara qarşı soyqırımı törədiblər. Xocalı soyqırımı zamanı 613 şəxs ağlasığmaz vəhşiliklə qətlə yetirilib, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb, şəhər yerlə yeksan edilib. Arif Rüstəmov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbə ilə Xocalı şəhidlərinin də qisasının alındığını vurğulayıb.

Filialın Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Valeh Nəsibov, filialın müəllimi Əfranə Həsənli, IV kurs tələbəsi Pəri İbrahimova faciə ilə bağlı çıxış ediblər.

Tədbirin sonunda filialın IV kurs tələbəsi Qənirə Musayeva Xocalı faciəsinə həsr olunmuş şeir səsləndirib.

# BDU-nun xarici tələbələri Xocalı soyqırımı barədə məlumatlandırılıb



***Fevralın 22-də Bakı Dövlət Universitetində təhsil alan xarici tələbələrin iştirakı ilə Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş "Xocalı - əsrin faciəsi" adlı tədbir keçirilib.***

Tədbirdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov "Xocalı soyqırımı - tarixi həqiqətlər" mövzusunda təqdimatla çıxış edib. Qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan edib, dinc, əliyalın əhaliyə qarşı qırğın törədib. O, Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasətinin misli görünməmiş vəhşilik və qəddarlıqla müşayiət olunduğunu bildirib.

Tədbirdə xarici tələbələrə ingilis və rus dillərində Xocalı soyqırımı ilə bağlı məlumat verilib. Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Şəms Bağırova Xocalı soyqırımı zamanı qətlə yetirilmiş və itkin düşmüş uşaqlar haqqında "Onlar heç vaxt böyüməyəcəklər" adlı təqdimatla çıxış edib.

Tədbir faciəyə həsr olunmuş filmin nümayişi ilə başa çatıb.

# "Xocalını unutmadıq" adlı rəsm sərgisi və film nümayişi təşkil olunub




***Fevralın 22-də Bakı Dövlət Universitetində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş "Xocalını unutmadıq" adlı rəsm sərgisi açılıb.***

Sərgidə BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin rəssamlıq dərnəyinin üzvü olan 10-dan çox tələbənin Xocalı soyqırımının dəhşətlərini əks etdirən əsərləri nümayiş olunur.

Rəsm əsərləri soyqırıma məruz qalmış insanların yaşantılarını, psixoloji vəziyyətini, erməni təcavüzkarlarının törətdikləri cinayətlərin dəhşətlərini ekspressionist üslubda, sənətin dili ilə göstərmək məqsədi daşıyır.

Sərgi həftənin sonunadək davam edəcək.

Sərginin açılışından sonra tanınmış şair Nurəngiz Günün poeması əsasında çəkilmiş "Xocalı simfoniyası" filmi nümayiş olunub.

# Tarix fakültəsində "Xocalı–tarixdə ən dəhşətli soyqırım aktı" adlı tədbir



***Fevralın 22-də Bakı Dövlət Universitetinin Tarix fakültəsinin təşkilatçılığı ilə "Xocalı-tarixdə ən dəhşətli soyqırım aktı" adlı tədbir keçirilib.***

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov ermənilərin tarix boyu azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırım siyasəti barədə məlumat verib. Qeyd edib ki, 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilən genosid aktı təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

Türk xalqları tarixi kafedrasının dissertantı Vasif Nəbiyev Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tanınması istiqamətində görülən işlər barədə danışıb. O bildirib ki, Xocalı soyqırımından 30 il ötməsinə baxmayaraq, hələ də bu dəhşətli terror aktına biganə qalan dövlətlər mövcuddur. O, Xocalı faciəsinin qurbanlarının qisasının 44 günlük Vətən müharibəsi zamanı ordumuz tərəfindən layiqincə alındığını vurğulayıb.

Tarix fakültəsinin II kurs tələbəsi Əfsanə Vəliyeva isə Xocalı faciəsinin şahidlərinin dilindən yazılmış hekayəni təqdim edib.

Sonda isə tələbələr tərəfindən hazırlanmış videoçarx və slayd izlənilib.

# Jurnalistika fakültəsində Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib

***Jurnalistika fakültəsi Tələbə Gənclər Təşkilatı (TGT) tərəfindən Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə soyqırım qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Tədbiri giriş sözü ilə açan fakültənin dekan müavini Samir Mirzəyev Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsinin ağrılı-acılı günlərindən bəhs edərək, bu soyqırımın insanlığa qarşı vəhşilik və müsibət olduğunu vurğulayıb. Bəşər tarixinə qanlı faciə kimi daxil olan Xocalı soyqırımının qan yaddaşımızda silinməz izlər qoyduğunu bildirib.

Sonra Tarix fakültəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasının dosenti Atamoğlan Məmmədli çıxış edərək bir gecənin içərisində Xocalının yerlə-yeksan edilməsini qeyd edib, keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücumu ilə bağlı tarixi faktları tələbə-müəllimlərin diqqətinə çatdırıb.

Daha sonra fakültənin 1-ci kurs tələbəsi Lalə Hüseynovanın müəllifliyi ilə hazırlanan kompozisiya(mətni səsləndirdi: Səma Muğanna) təqdim olunub.

Eyni zamanda fakültənin 1-ci kurs tələbələri Sevinc İsmayılova və Aydan Rəsulzadənin Xocalı soyqırımı ilə bağlı videoçarxları nümayiş olunub.

Sonda BDU Tələbə Gənclər Təşkilatının (TGT) sədr müavini, Filologiya fakültəsi TGT-nin sədri Ələkbər Həsənov və Jurnalistika fakültəsi TGT-nin sədri Fariz Sarıyev belə tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar, tədbirdə iştirak edən hər kəsə dərin təşəkkürlərini bildiriblər.

# BDU-nun nəzdində Fizika Problemləri İnstitutunda Xocalı soyqırımı anılıb



***Fevralın 25-də Bakı Dövlət Universitetinin nəzdində Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunda Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə Xocalı soyqırımı qurbanlarının və şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Fizika Problemləri ETİ-nin həmkarlar təşkilatının sədri Mübariz Məmmədov Xocalı soyqırımı barədə məruzə ilə çıxış edib. Qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş SSRİ-nin Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum edib. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülüb, 487 nəfər ağır yaralanıb, 1275 nəfər dinc sakin girov götürülüb, 150 nəfərin taleyi hələ də məlum deyil.

Daha sonra İnstitutun direktoru Sədiyar Rəhimov, aparıcı elmi işçi Qəzənfər Bayramov, elmi işçi Nərmin Hüseynova, şöbə müdiri Fərhad Rüstəmov Xocalı soyqırımının dəhşətlərinin unudulmaması və gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün təkliflərini səsləndiriblər. Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbə ilə Xocalı şəhidlərinin də qisasının alındığını vurğulayıblar.

# "Media haqqında" Qanun təsir qüvvəsindən kənarda qalan məsələləri tənzimləməklə bərabər, həm də münasibətlərin yeni nizamasalma mexanizmlərini müəyyənləşdirir"

***Müasir çağırışlara cavab verən "Media haqqında" yeni qanuna ehtiyac var idi. Media ilə bağlı qanunların bir çoxu, o cümlədən "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanun artıq müasir tələblərə cavab vermirdi. Media hər zaman dinamik və dəyişkən bir sahə olub. Çünki texnologiya inkişaf edir, jurnalistikanın özü simasını və özünüifadə tərzini daim dəyişir.*** Bu gün biz XIX əsrlə XX əsr jurnalistikası arasında nə qədər böyük fərq görürüksə, XXI əsr jurnalistikasında da o qədər yeniləşmənin şahidiyik. Bu fərq getdikcə özünü daha qabarıq şəkildə büruzə verir. Çünki janrlar dəyişir, jurnalistikanın prinsipləri, onun fəlsəfəsinə baxış dəyişir. Əslində, son illərdə aparılan media islahatlarının ən vacib komponenti kimi dəyərləndirilməli olan yeni Qanun həm də müasir çağırışları əks etdirən sənəd kimi səciyyələndirilməlidir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu bildirib.

Qanunda media subyektlərinin dəqiq təsnifatının verilməsinin çox mühüm məsələ olduğunu diqqətə çatdıran V.Ziferoğlu tənzimlənən və tənzimlənməyən media növləri arasında dəqiq sərhəd müəyyən edilməsini vacib amil kimi dəyərləndirib. Bildirib ki, "Media haqqında" Qanun bir tərəfdən bu günə qədər qanunun təsir qüvvəsindən kənarda qalan məsələləri tənzimləyir, digər tərəfdən isə artıq tənzimlənən münasibətlərin yeni nizamasalma mexanizmlərini müəyyənləşdirir.

Onun sözlərinə görə, yeni qanun həm də ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması baxımından da qiymətləndirilməlidir. Hələ yaxın keçmişdə, on il bundan əvvəl indiki qədər ümumilikdə beynəlxalq jurnalistika üçün ciddi problem olmayan məqamlar, indi ən çox müzakirə olunan, prioritet, həlli üzərində müzakirələr aparılan məsələlər kimi aktualdır. Məsələn, biz bu gün artıq "informasiya ekologiyası", "informasiya manipulyasiyası", "kütləvi dezinformasiya axını", "rəqəmsal faşizm" kimi problemlərdən danışırıq. Bütün bu yeni və aktual problemlər, heç şübhəsiz, bu və ya digər dərəcədə media ilə bağlı qanunvericilik aktlarında öz əksini tapmalıdır.

V.Ziferoğlu vurğulayıb ki, media savadlılığı məsələsi də ilk dəfə olaraq Qanunda öz əksini tapır. Bu məsələ dünya ölkələrində, o cümlədən Türkiyədə prioritetdir. İnformasiya ilə iş prinsipinin müəyyənləşdirilməsi isə ayrı-ayrı media quruluşları arasında sağlam rəqabəti təmin edəcək. Həmçinin beynəlxalq təcrübədəki müxtəlif məqamların qanun layihəsinə salınması öz müsbət nəticəsini verəcək. "Ümumiyyətlə, media-dövlət, cəmiyyət-media münasibətlərinin tənzimlənməsi baxımından da qanunun əhəmiyyətini vurğulamaq yerinə düşərdi. Unutmaq olmaz ki, Qanun qarşılıqlı münasibətləri tənzimləyən hüquqi aktdır. Burada yalnız jurnalistlərin deyil, eyni zamanda, bizim jurnalist olaraq maarifləndirməklə, ictimai nəzarəti həyata keçirməklə xidmət etdiyimiz cəmiyyətin də maraqları təmin olunmalıdır", - deyən dekan bildirib ki, əslində, media sahəsində son illərdə aparılan islahatlar öz müsbət nəticəsini verməkdədir. Müşahidə olunan müsbət dəyişikliklər media qurumlarının, o cümlədən media subyektlərinin də fəaliyyət və hüquqlarının müəyyənləşdirilməsində, eləcə də media mənsublarının fəaliyyət azadlığı, jurnalistin peşə fəaliyyətinin təmin olunmasının hüquqi təminatını yaradan yeni qanunun qəbulunu, Azərbaycan mediasının inkişafa və yeni çağırışlara hazır olmasını hədəfləyən bir proses kimi qiymətləndirmək olar.

***AZƏRTAC***

# 21 fevral–Beynəlxalq Ana Dili Günüdür

***1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə apararaq öldürülən 4 tələbənin xatirəsinə ehtiram olaraq elan olunub. Beynəlxalq Ana Dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır.***

Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması dilimizin gözəl bilicisi, Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1969-cu ildə qoyulub: Heydər Əliyev həmin il indiki Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış edib. Az keçməmiş bu dil dövlət əhəmiyyətli tədbirlərə də yol açıb. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə olub.

Ümummilli lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən, avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis edilib. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub. Bu sənəd Ümummilli Lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir.

Hazırda bu ənənələri Prezident İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Ana dilimizin saflığını qorumaq, inkişaf etdirmək hər birimizin müqəddəs vəzifəsidir.

# BDU-da Beynəlxalq Ana Dili Günü qeyd olunub

***Filologiya fakültəsində 21 Fevral - Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Ana dilimiz milli varlığımızdır" adlı tədbir keçirilib. Tədbir Dövlət Himninin səsləndirilməsi, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.***



BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov müasir dünyanın dil mənzərəsindən, qloballaşmanın milli dillərə təsirindən, Azərbaycan dilinin keçdiyi tarixi inkişaf yolundan, dilimizin xarici təsirlərə qarşı müqavimət dərəcəsinin güclü olmasından söz açıb, dövlət müstəqilliyinin bərpasından sonra Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən dil quruculuğundan bəhs edib.

BDU-nun Türkologiya kafedrasının magistrantı Məleykə Mirzəli "Yox olma təhlükəsində olan türk dilləri" adlı məruzə ilə çıxış edərək, türk dillərinin müasir problemləri haqqında məlumat verib.

Tədbir iştirakçıları Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzində istehsal olunan "Bir günəş altında" filmində Azərbaycanda yaşayan müxtəlif etnik qrupların nümayəndələrinin dillərindən nümunələr nümayiş etdirilən fraqmentlərə baxıb.

Daha sonra BDU-nun Azərbaycan dilçiliyi kafedrası tərəfindən fakültə tələbələri arasından keçirilmiş "Ana dilimiz milli varlığımızdır" adlı esse müsabiqəsinin qalibləri mükafatlandırılıb. Müsabiqənin nəticələrinə əsasən, I kurs tələbəsi, Prezident təqaüdçüsü Nuridə İsmayılova I, IV kurs tələbəsi Narıngül Məlikova II, III kurs tələbəsi Fidan Hüseynzadə isə III yerə layiq görülüb. Qaliblərə diplom və hədiyyələr təqdim olunub.

Sonda müsabiqə qaliblərinin esseləri dinlənilib.

# Şərqşünaslıq fakültəsində urdu dilinin yaranma tarixinə dair ustad dərsi

***Fevralın 23-də Şərqşünaslıq fakültəsində ustad dərs keçirilib. Hindistan Təhsil Nazirliyi yanında Milli Təhsil Tədqiqatları və Təlim Şurasında məktəb dərsliklərinin urdu nəşrləri üzrə məsul redaktoru, yazıçı-publisist Pərviz Əhməd Şəhriyar tələbələrə "Urdu dilinin yaranma tarixi və Hindistanda urdu dilinin inkişaf istiqamətləri" adlı mühazirə oxuyub.***

Pərviz Əhməd Şəhriyar mühazirəsində urdu dilinin yaranma tarixi və Hindistanda inkişafı haqqında məlumat verib. Bildirib ki, urdu dili Hindistanın 23 rəsmi dövlət dilindən biridir, ölkədə 50 milyona yaxın insan bu dildə danışır. Urdu dilində müasir dövrün tələblərinə uyğun kitab və jurnallar çap olunur.

Pərviz Əhməd Şəhriyar onu da bildirib ki, Hindistan universitetləri BDU ilə əməkdaşlığın inkişafında maraqlıdır.

Ustad dərsi auditoriya tərəfindən maraqla dinlənilib, dinləyicilərin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU-nun rektoru Elçin Babayev Qlazov Dövlət Pedaqoji İnstitutunun rektorunu qəbul edib

***Fevralın 22-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Rusiya Federasiyasının Udmurtiya Respublikasının Qlazov Dövlət Pedaqoji İnstitutunun rektoru Yanina Çiqovskaya-Nazarovanı qəbul edib.***

Rektor Elçin Babayev qonağa Azərbaycanın ən böyük və qədim universiteti olan BDU haqqında məlumat verib. Qeyd edib ki, 1919-cu ildə yaradılan BDU 16 fakültə, 120 kafedra, 3 elmi mərkəzi, 20 elmi-tədqiqat laboratoriyası, 2 elmi-tədqiqat institutu, 1 kollec və 1 liseyi özündə birləşdirir. E.Babayev son illər universitetin beynəlxalq əlaqələrinin daha da gücləndiyini, artıq 8 ölkə ilə



ikili diplom proqramlarının həyata keçirildiyini xatırladıb. Hazırda BDU-da 1 beynəlxalq kafedra - İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO kafedrası, 2 beynəlxalq institut - Konfutsi İnstitutu (Çin) və Bakı King Sejong İnstitutu (Koreya) və 3 beynəlxalq mərkəz - Abay Kunanbayev adına Qazax Mərkəzi, Azərbaycan-Koreya İnformasiya Təminatı Mərkəzi, Rus Mərkəzi fəaliyyət göstərdiyini vurğulayıb.

Qlazov Dövlət Pedaqoji İnstitutunun rektoru Yanina Çiqovskaya-Nazarova isə qeyd edib ki, rəhbərlik etdiyi təhsil ocağı Rusiyada müəllim hazırlığını həyata keçirən əsas ali məktəblərdəndir. O, Azərbaycanın ali məktəbləri ilə sıx əlaqələrin qurulmasında maraqlı olduğunu vurğulayıb.

Görüşdə BDU və Qlazov Dövlət Pedaqoji İnstitutu arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# BDU ilə Qlazov Dövlət Pedaqoji İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Fevralın 23-də Bakı Dövlət Universiteti ilə Rusiya Federasiyasının Udmurtiya Respublikasının Qlazov Dövlət Pedaqoji İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Qlazov Dövlət Pedaqoji İnstitutunun rektoru Yanina Çiqovskaya-Nazarova imzalayıb.

Müqavilənin məqsədi tərəflər arasında təhsil və elmi tədqiqatlar sahəsində əməkdaşlığı inkişaf etdirməkdir. Müqaviləyə əsasən, tərəflər arasında qısamüddətli və uzunmüddətli peşəkar təcrübə məqsədi ilə akademik mübadilə, qarşılıqlı maraq doğuran sahələrdə yüksəkixtisaslı elmi-pedaqoji kadrların və mütəxəssislərin hazırlanması, yenidənhazırlıq və ixtisasartırma, ikili diplom üzrə təhsil proqramların hazırlanması həyata keçiriləcək. Əməkdaşlıq müqaviləsi həmçinin ali məktəblərin professor-müəllim heyətləri tərəfindən qarşılıqlı mühazirələrin və ustad dərslərinin keçirilməsi, birgə elmi və elmi-texniki tədqiqatların aparılması, mövcud təhsil proqramları çərçivəsində qrantların alınması üçün birgə müraciətlərin hazırlanmasını və s. nəzərdə tutur.



# BDU Macarıstanın Eötvös Lorand Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb

***Fevralın 25-də Bakı Dövlət Universiteti ilə Macarıstanın Eötvös Lorand Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Eötvös Lorand Universitetinin rektoru Laszlo Borhy imzalayıb. Əməkdaşlıq müqaviləsində birgə elmi tədqiqat, konfrans, təhsil proqramları, təlimlərin təşkili, tədqiqatçı, tələbə və müəllim heyətinin mübadiləsi nəzərdə tutulur.

Əsası 1635-ci ildə qoyulmuş Eötvös Lorand Universiteti Macarıstanın ən qədim universitetidir. Hazırda Eötvös Lorand Universitetində 24600-dən çox tələbə təhsil alır. Eötvös Lorand Universiteti nüfuzlu "Times Higher Education" 2022-ci il beynəlxalq reytinq cədvəlində 601-ci sırada yer alır. Sözügedən universitetdə 38 bakalavriat, 96 magistr və 118 doktorant proqramı üzrə kadr hazırlığı həyata keçirilir.

# BDU-da Xocalı soyqırımına həsr edilmiş xüsusi dərs

***Fevralın 25-də Kitabxanaçılıq-informasiya fakültəsində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş xüsusi dərs təşkil olunub.***

Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan mühazirədə Ermənistanın işğalçılıq siyasəti, Xocalı soyqırımının başvermə səbəbləri, soyqırım qurbanları barədə tələbələrə dolğun informasiya verib. Natiq Xocalı soyqırımına hüquqi-siyasi qiymətin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra verildiyini xüsusi vurğulayıb.

Soyqırımın dünyada tanıdılmasında Heydər Əliyev Fondunun fəaliyyətinin, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyasının xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Həmin dövrdə jurnalist kimi fəaliyyət göstərən Knyaz Aslan müxtəlif mətbuat orqanlarında bu mövzuda yazdığı məqalələrdən sitat gətirib, eyni zamanda faciə günlərində gündəliyinə etdiyi tarixi qeydləri oxuyub. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbə nəticəsində bütün şəhidlərimiz kimi Xocalı soyqırımı qurbanlarının qisasının alındığını, onların ideallarının qalib gəldiyini vurğulayan natiq Vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda edən soydaşlarımızın əziz xatirələrinin hər zaman xalqımız tərəfindən yaşadılacağını bildirib.

# "Açıq hava turizm fəaliyyətində beynəlxalq təcrübənin öyrənilməsi" mövzusunda elmi seminar

***Fevralın 28-də Coğrafiya fakültəsində "Açıq hava turizm fəaliyyətində beynəlxalq təcrübənin öyrənilməsi" mövzusunda elmi seminar keçirilib.***

Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının doktorantı Kərim Hüseyn-zadə elmi məruzə ilə çıxış edib. Kərim Hüseyn-zadə mövzunun aktuallığını, açıq hava turizm növlərinin xüsusiyyətlərini, əhəmiyyətini qeyd edərək, bu turizm fəaliyyətində tələbin qiymətləndirilməsi, koronavirusun beynəlxalq turizm bazarına təsiri, həmçinin müxtəlif statistik mənbələrdən əldə edilən məlumat və qrafiklərin nəticələri haqqında məlumat verib. O, Azərbaycanda açıq hava turizm fəaliyyətlərinin inkişaf üsullarının müəyyənləşdirilməsi, onların elmi-nəzəri və praktiki əhəmiyyəti haqqında təkliflər irəli sürüb.

Fakültənin dekanı Şəkər Məmmədova məruzəçinin 2019-cu ildə BDU-nun Coğrafiya fakültəsinin turizm və otelçilik ixtisası üzrə magistratura pilləsini fakültə birincisi olaraq fərqlənmə diplomu ilə bitirdiyini, təhsil aldığı müddət ərzində "Mevlana" proqramı çərçivəsində Türkiyə Respublikasının Ali Təhsil Nazirliyinin tam təqaüdünə layiq görülərək Kastamonu Universitetinin turizm və otel menecmenti magistr proqramında təhsili aldığını və fərqlənmə diplomuna layiq görüldüyünü, hazırda doktorantura təhsili müddətində Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin həyata keçirdiyi layihə çərçivəsində Antalya şəhərinin Alanya turizm bölgəsində elmi-praktik fəaliyyətlə məşğul olduğunu seminar iştirakçılarının nəzərinə çatdırıb.

Seminarda mövzu ilə bağlı müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# BDU-da kitab bağışlama aksiyası keçirilib





***Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə BDU nəzdində İqtisadiyyat və Humanitar Kollecin kitabxanasına 153 adda 500 nüsxədən çox kitab hədiyyə edib. Hədiyyə olunmuş kitablar arasında Azərbaycan dili və nitq mədəniyyəti, Azərbaycan ədəbiyyatı, tarixi, kitabxana işi, pedaqogika, ekologiya, coğrafiya, təhsil, siyasət, həmçinin iqtisadiyyat, menecment, bank işi, makro və mikroiqtisadiyyata aid ingilis dilindən Azərbaycan dilinə tərcümə olunmuş beynəlxalq miqyaslı akademik nəşrlər, dərsliklər də yer alıb.***

Kitabxanaya hədiyyə olunan ensiklopediyalar, müxtəlif məzmunlu lüğət və soraq-məlumat nəşrləri yalnız tələbələrin deyil, kollecin müəllim heyətinin də informasiya tələbatının ödənilməsinə töhfə olacaq.

Elmi Kitabxana hər il 14 fevral tarixində kitab bağışlama aksiyası keçirir. Kitabxana bu il də ənənəyə sadiq qalaraq yeni çapdan çıxmış BDU nəşrlərini aksiya iştirakçılarına hədiyyə edib.

BDU Elmi Kitabxanasının əməkdaşları Kollecin kitabxanasının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində təcrübə mübadiləsi apardılar. Aksiya çərçivəsində BDU əməkdaşları Kollecin Heydər Əliyev lektoriyası ilə tanış oldular.

Xatırladaq ki, ötən il fevralın 14-də Bakı Dövlət Universitetinin Elmi Kitabxanası Lənkəran Dövlət Universitetinin kitabxanasına ali məktəb tələbələri üçün dərslik və dərs vəsaitləri hədiyyə edib.

# Elmi Kitabxanada IEEE Xplore Rəqəmsal Kitabxanasından istifadə qaydaları ilə bağlı təlim

**Fevralın 4-də Bakı Dövlət Universitetinin Elmi Kitabxanası və Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə BDU-da "IEEE Xplore beynəlxalq verilənlər bazasının elm və tədris mənbələri: inkişaf üçün yeni imkanlar və axtarışlar" mövzusunda onlayn təlim keçirilib.**




BDU-nun və "Mikro məlumatların idarə edilməsi və paylanması" ("Micro Information Handling and Distribution FZE") şirkətinin əməkdaşları və tədqiqatçılarının da iştirak etdiyi təlimdə IEEE müasir texnologiyaların inkişaf etdirilməsi üzrə dünyanın ən böyük təşkilatı haqqında təqdimat nümayiş olunub.

Daha sonra dünyanın ən böyük texniki rəqəmsal kitabxanası olan IEEE Xplore rəqəmsal kitabxanası və bu platformada yerləşdirilən azərbaycanlı müəlliflərin, BDU alimlərinin məqalələri və konfrans materialları təqdim edilib. BDU kollektivi üçün IEEE Xplore rəqəmsal kitabxanasından bir aylıq ödənişsiz sınaq istifadə müddətində həmçinin tədqiqatçılar üçün məqalələrin bu platformada nəşr etdirmək imkanlarından bəhs edən "Müəlliflik: IEEE ilə necə nəşr etməli" adlı növbəti onlayn seminarın da keçiriləcəyi haqqında məlumat verilib.

Dünyanın 160 ölkəsindən 500.000-dən çox üzvü olan təşkilatın Rəqəmsal kitabxanasına abunə olunduğu təqdirdə, istifadəçilər kitabxananın bütün xidmətlərindən tam istifadə edə biləcək və 5 milyondan çox tammətnli sənəd, 200 IEEE jurnalı, dövri nəşrlər və toplular, 1800-dən çox IEEE konfrans materialları, 4600-dən çox təsdiqlənmiş və nəşr olunmuş IEEE standartlı sənədlərə çıxışları olacaq.

Təqdimat xarakterli təlimin sonunda iştirakçıların sualları cavablandırılıb.

# BDU alimləri üçün "DataTurkey" məlumat bazasından ödənişsiz istifadə imkanı

***Bakı Dövlət Universitetinin Elmi Kitabxanası universitetin professor-müəllim heyəti, gənc tədqiqatçı və oxucularına 2022-ci il fevralın 15-dən etibarən bir ay sınaq müddətinə "DataTurkey" məlumat bazasının resurslarından ödənişsiz istifadə imkanı təqdim edir.***

Türkiyənin bir çox dövlət və özəl qurumu tərəfindən hazırlanan iqtisadi, sosial və regional məlumatları özündə birləşdirən "DataTurkey" məlumat bazası BDU oxucuları üçün martın 15-dək açıq olacaq.

Müntəzəm olaraq yenilənən "DataTurkey"in tətbiqi sayəsində bir çox müxtəlif qurum və təşkilatların məlumat mənbələrini tək platformada rahatlıqla idarə etmək, statistik və dinamik hesabatlar hazırlamaq, zaman seriyası və ya panel məlumat cədvəli yaratmaq, göstəriciləri qrafiklərdə əks etdirmək, müəyyən edilmiş cədvəl və qrafikləri müxtəlif formatlarda yükləmək, istifadə etmək, müqayisəli cədvəllər yaratmaq, metadata fayllarını araşdırmaq mümkündür.

Qeyd edək ki, BDU-nun Elmi Kitabxanası "DataTurkey" məlumat bazasının resurslarından digər ali məktəb kitabxanaları üçün Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu çərçivəsində bir ay müddətinə ödənişsiz istifadə imkanını yaradıb.

# "Gənc istedadlar" liseyinin şagirdləri "Sabahın alimləri" XI Respublika müsabiqəsinin qalibləri sırasında



***Fevralın 24-də "Sabahın alimləri" XI Respublika müsabiqəsinin onlayn bağlanış mərasimi keçirilib.***

Tədbirdə təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edən, akademik Arif Həşimov, Gənclər və idman nazirinin müavini İndira Hacıyeva təbrik nitqi ilə çıxış ediblər.

Mükafatlandırılan qaliblər arasında BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin şagirdləri xüsusi fərqləniblər. Onlardan X sinif şagirdi Ərhan İbrahimli biologiya, X sinif şagirdi Ayaz Ömərli ekologiya və XI sinif şagirdi Nigar Namazova mühəndislik istiqaməti üzrə birinci yerin sahibi olublar. Qalib olan 3 layihə cari ildə 8-13 may tarixlərində ABŞ-ın Corciya ştatının Atlanta şəhərində keçirilməsi nəzərdə tutulan İSEF Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edəcək.

X sinif şagirdləri Salman Vahabov və Fərhad Kərimbəyli fizika, X sinif şagirdləri Nəzrin İsmayılova, Ayşən Hacıyeva biologiya, XI sinif şagirdləri Nərgiz Orucova, Amin Zeynalov tibb, IX sinif şagirdləri Camal Axundov, Həvva Qəmbərova isə ekologiya istiqaməti üzrə ikinci sırada qərar tutublar.

XI sinif şagirdi Fidan Qurbanova kimya, XI sinif şagirdləri Rəfsan Həbibullayev, Tamilla Süleymanova fizika, IX sinif şagirdləri Rüxsarə Zamanlı və Fəraf Əziz – Meşkin biologiya istiqaməti üzrə üçüncü yerə layiq görülüblər.

Təhsil Nazirliyinin əsas təşkilatçılığı ilə 2012-ci ildən etibarən keçirilən müsabiqəyə ölkə miqyasında maraq ildən-ilə artmaqdadır. Müsabiqə Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə təşkil edilir.

# “GÜN VAR ƏSRƏ BƏRABƏR”



**Ulu Tanrının insana verdiyi ömür payını hərə bir cür yaşayır. Ömür var həzin bir mehə bənzəyir, əsir, əsir sonra da yoxa çıxır. Ömür var ki, torpağı göylərə sovuran burulğana bənzəyir, aləmi bir-birinə qataraq iz salıb gedir. Ömür də var ki, taleyin döngəli sərt yollarını cəsarətlə yarıb keçərək yüksəlir, neçə-neçə ömürlərə çıraq tutur, şölə saçır. Belə şərəfli ömür sürmüş şəxsiyyətlərdən biri də Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Teymur oğlu Bağırovdur.**

1946-cı il aprel ayının 22-də Ağdam şəhərində Teymur kişinin ocağı bir sevinc nuruna boyandı. Onun 5 qız övladından sonra bir oğlu dünyaya gəldi. Adını Allahverdi qoydular. Doğrudan da sonralar həyat göstərdi ki, onu elə obaya Allah vermişdi. Vermişdi ki, köməksizlərə arxa dursun, dara düşənlərin dadına çatsın, ümidsiz qalmışlara inam versin. Allahverdi Bağırovun mənalı həyat yolundan yaddaşlarda qürur və sevinc doğuran çoxlu xatirələr qalıb. O, uşaq vaxtı çox qoçaq olub. Heç nədən qorxub çəkinməzmiş. Tay-tuşlarının, hətta özündən yaşca böyüklərin belə qollarını əyər, kürəklərini yerə vurarmış. O, gücsüzlərə arxa-dayaq olar, həmişə sözün düzünü danışardı. Qorxmazlıq, məğrurluq, bütövlük, əyilməzlik, dönməzlik tale yazısı kimi onun alnına yazılmışdı. Allahverdi Bağırov öz mərd, xeyirxah əməlləri ilə böyümüş, qalxıb-ucalmış, mətinliyin, kişiliyin və insanlığın zirvəsində qərar tutmuşdu. Elə bu xarakterinə görə də həmişə ətrafındakılar ondan çəkinmiş, bir sözlə, bu döyüşkən-əyilməz insanın bir sözünü iki etməyə heç kəsin cürəti çatmazmış.

Deyirlər hər bir tanınmış şəxsiyyətin həyatı və fəaliyyəti dövrlə, zamanla, öz vətəni, öz xalqı ilə, azadlıqla bağlı olmalıdır. Bu baxımdan Allahverdi Bağırovun ömür payına iftixarla, qürur hissi ilə sadalanan günlər, aylar, illər düşmüşdür. O, Respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həmişə ön sırada olardı. Allahverdi Bağırov Qarabağ bölgəsində bu müqəddəs amal uğrunda mübarizə aparanların sarvanı idi. Müstəqil Azərbaycanın bayrağını ilk dəfə Ağdama Allahverdi Bağırov sancmışdır. Allahverdi Bağırov erməni daşnaklarının Respublikamıza ərazi iddiaları irəli sürdüyü ilk günlərdən onlara qarşı mübarizəyə başladı. Çox keçmədi ki, elimizin igid, vətənpərvər oğulları onun ətrafına toplandılar. Yaranmış könüllülər batalyonuna Allahverdi Bağırov komandirlik edirdi. Batalyonun şəxsi heyəti bölgənin müdafiəsində ayıq-sayıq dayanır, dinc əhalinin təhlükəsizliyini layiqincə təmin edirdi. Allahverdi Bağırovun göstərdiyi qəhrəmanlıqlar, etdiyi mərd işlər barədə günlərlə, həftələrlə danışmaq olar.

Allahverdi Bağırov XX əsrin ən dəhşətli faciəsi-Xocalı soyqırımı zamanı misilsiz xidmətlər göstərmişdir. O, çox böyük qətiyyət və mərdlik göstərərək komandirlik etdiyi batalyona göstəriş vermiş və qaçıb canını qurtarmaq istəyən yüzlərlə xocalı sakinlərinin köməyinə çatmış, onları ölümün pəncəsindən almışdır. O, vəhşiliklə qətlə yetirilib çöllərdə qalmış cəsədləri ərazidən yığdırıb, dəfn etdirmiş, yaralıları, donmuş adamları xəstəxanaya çatdırmışdır. Qeyd edək ki, bu işlərin çoxunu Allahverdi Bağırov öz şəxsi vəsaiti hesabına etmişdir. Onun şəxsi təşəbbüsü və ciddi səyi nəticəsində ən amansız erməni vəhşilikləri teleoperator Seyidağa Mövsümlü tərəfindən video kamera vasitəsi ilə lentə köçürülmüşdür. Allahverdi Bağırov Xocalı soyqırımı zamanı öz şəxsi nüfuzu hesabına 1003 nəfəri əsirlikdən azad etmişdir. Xocalı soyqırımının əzab-əziyyətlərini Allahverdi Bağırovdan çox çəkən, bu faciənin müsibətlərini ondan çox görən olmamışdır. Əminliklə deyə bilərik ki, Allahverdi Bağırov olmasaydı, Xocalı soyqırımı zamanı həlak olan insanların sayı daha yüzlərlə olardı. Allahverdi Bağırov olmasaydı, amansız erməni vəhşilikləri video lentə köçürülməzdi.

Allahverdi Bağırov Şuşa işğal olunarkən də bir çox dinc əhalinin dadına çatmış, onların erməni işğalçılarına əsir düşməsinə imkan verməmişdir. O, həmçinin Şuşanın işğalı zamanı və digər vaxtlarda əsir düşmüş həmyerlilərimizi əsirlikdən azad etmişdir. Demək olar ki, bəlkə də Qarabağ savaşı başlayan gündən indiyə kimi beynəlxalq təşkilatların azad etdiyi azərbaycanlı əsir və girovların sayı təkcə Allahverdi Bağırovun azad etdiyi əsir və girovların sayından azdır.

Allahverdi Bağırovun rəhbərliyi ilə komandirlik etdiyi batalyon Əsgəran rayonunu və onun Aranzəmin, Pircamal, Təkir, Mirkənd, Naxçıvanik kəndlərini erməni daşnaklarından azad etmişlər. O, bu döyüşlərdə misilsiz qəhrəmanlıqlar göstərmiş və bu əməliyyata görə "General Məhəmməd Əsədov" mükafatına layiq görülmüşdür. O, Əsgəran uğrunda gedən döyüşlərin birində minaya düşərək qəhrəmancasına həlak olmuşdur. Azərbaycan Respublikası prezidentinin 24 fevral 1993-cü il tarixli 476 saylı fərmanı ilə Bağırov Allahverdi Teymur oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin fərmanı ilə Allahverdi Bağırov "Qızıl Ulduz" medalı ilə təltif olunmuşdur.

12 iyun 1992-ci ildə dəyişdi dünyasını Allahverdi Bağırov. Hər günü, hər ayı qeyri-adi hadisələrlə, qəhrəmanlıqlarla və mübarizələrlə dolu olan 46 il onun üçün elə bir uzun ömür deyildi. O, hələ yaşamaq, torpaqlarımızın müdafiəsi naminə vuruşmaq istəyirdi. Özü də sona qədər vuruşmaq və qalib gəlmək əzmindəydi. Hələ Xankəndiyə qələbə bayrağını özüm sancacağam da demişdi. Lakin... azğın düşmən fitnəsi, nadan cəllad fəsadı bu əzmi qırdı, Vətən məhəbbəti ilə döyünən qəlbini söndürdü.

Tarixdə elə günlər olur ki, o günlər heç vaxt unudulmur, xoş və ya acı bir xatirə kimi yaddaşlara həkk olunur, müqəddəsləşir, nağıllaşır və gələcək nəsillərə ötürülür.

Gün var əsrə bərabər: 22 aprel 1946-ci il. Bu gün, yüzlərlə, minlərlə insanların ümid, pənah yerinə çevriləcək; ölümlə üz-üzə qalmış, artıq bütün ümidlərini itirmiş neçə-neçə insanları ölümün pəncəsindən qurtaracaq; yaşadığı ömrü boyu vətənini, millətini bütün varlığı ilə sevəcək, bu yolda canını belə əsirgəməyəcək bir insan dünyaya gəldi-Allahverdi Bağırov.

Gün var əsrə bərabər: 26 fevral 1992-ci il. Bu gün, XX əsrin ən dəhşətli faciəsi-“Xocalı soyqırımı” adı ilə Azərbaycan tarixinə qara hərflərlə yazıldı. Xalqımız, tarix boyu dəfələrlə məruz qaldığı erməni xəyanətini, erməni xislətini, erməni vəhşiliklərini bir daha gördü. “Erməni ziyalılarının” sifarişi ilə yüzlərlə dinc xocalı sakinləri, uşaqlar, qadınlar, qocalar qəflətən, amansızlıqla, qəddarlıqla qətlə yetirildilər.

Gün var əsrə bərabər: 12 iyun 1992-ci il. Bu gün, xalqımız vətənpərvər, mərd, qeyrətli, qorxmaz, igid oğlunu-Allahverdi Bağırovu itirdi. O, şəhidlik zirvəsinə ucaldı.

Allahverdi Bağırov Vətənini, Xalqını olduqca çox sevirdi. Bu amal uğrunda O, hər şeydən, hətta canından da keçməyə hazır bir şəxsiyyət idi. Keçdi də. Çox tez dəyişdi dünyasını Allahverdi Bağırov. Onun möhkəm fiziki qüvvəsinə, vüqarlı baxışlarına, güclü iradəsinə, mərd görkəminə, nurlu çöhrəsinə ölüm yaraşmırdı. Bircə şeylə təskinlik tapırıq: Allahverdi Bağırov həyata, insanlığa, dostluğa qartal kimi gəlmişdi. O ömrünün sonunadək qartal qamətini dəyişmədi də. Onun zəiflədiyini, əldən düşdüyünü heç kəs görə bilmədi, elə qartal görkəmi ilə də dünyanı tərk etdi.

Ölümün pəncəsindən neçə insanlar aldı,
Haraya, haya çatdı, çox bəlalar sovuşdu.
Yaddaşlarda xilaskar qəhrəman kimi qaldı,
Şərəfli ömür sürdü, ölməzliyə qovuşdu.

Bəli Allahverdi Bağırov ölmədi, o bütün mənalı həyatını, gücünü, cəsarətini, iradəsini Vətəninə, Xalqına həsr etdi və müqəddəs amal uğrunda canından keçmiş, ürəklərdə hörmət və məhəbbətlə yaşayan unudulmaz qəhrəmanların: Babəkin, Koroğlunun, Cavad xanın, ... qərar tutduğu bir aləmə qovuşdu. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Bəxtiyar Paşayev***
*Fizika fakültəsinin dekanı*

# Milli Qəhrəman Mübariz İbrahimovun doğum gününə həsr olunmuş tədbir keçirilib

***Fevralın 8-də Bakı Dövlət Universitetində “BDU Könüllüləri”nin təşkilatçılığı ilə Milli Qəhrəman Mübariz İbrahimovun doğum gününə həsr olunmuş onlayn tədbir keçirilib.***

Tədbirdə çıxış edən Şərqşünaslıq fakültəsinin tələbə könüllüləri - Ağalarlı Şəfəq, İbrahimzadə Lamiyə və Qurbanova Nübar Milli Qəhrəmanın həyat və döyüş şücaəti haqqında məlumat verib, tarix yazmış əfsanəvi qəhrəmanlarımızla qürur duyduqlarını bildiriblər. Çıxış edənlər Mübariz İbrahimovun döyüş qəhrəmanlığından danışıb və vətənpərvərliyinin bugünkü gənclərə örnək olduğunu qeyd ediblər. Qeyd olunub ki, bu gün Mübarizin ruhu şaddır, çünki onun uğrunda şəhid olduğu Vətən torpağı 44 gün ərzində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusu tərəfindən düşmən tapdağından azad olunub.

# BDU-nun Psixoloji yardım sektoru "Oxu klubu"na üzvlük üçün qəbul elan edir

***Bakı Dövlət Universitetinin Psixoloji yardım sektoru universitet əməkdaşları və tələbələrinin şəxsi inkişaf səviyyəsinin artırılması məqsədi ilə "Oxu klubu"na üzvlük üçün qəbul elan edir.***

"Oxu klubu"nun fəaliyyət planı çərçivəsində iştirakçıların oxu vərdişi və moderatorluq qabiliyyəti inkişaf etdiriləcək, ədəbiyyat nümunələri və şeirlərin təhlili aparılacaq. Eyni zamanda, iştirakçıların oxu bacarıqlarını inkişaf etdirməsi məqsədi ilə psixi proseslər üzrə praktik çalışmalar da nəzərdə tutulub.

"Oxu klubu"nun üzvləri ilə görüş ayda 2 dəfə 2 saat olmaqla keçiriləcək. Kluba üzv olmaq üçün qeydiyyat tarixi fevralın 21-nə qədərdir.

Psixoloji yardım sektoru ilə əlaqə tel.: (+99477)304 24 48

# Professor İzzət Rüstəmovun 90 illiyinə həsr olunmuş Respublika elmi konfransı

***Fevralın 15-də Bakı Dövlət Universitetində professor İzzət Rüstəmovun 90 illiyinə həsr olunmuş "Təbiətşünaslığın fəlsəfəsi sosial və humanitar elmlərin qovşağında" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Tədbirdə çıxış edən BDU -nun rektoru Elçin Babayev İzzət Rüstəmovu yubiley münasibəti ilə təbrik edərək, onun Universitetin ictimai həyatında böyük xidmətləri olduğunu qeyd edib: "İzzət Rüstəmov hamı üçün əzizdir. O, həm dövlət xadimi, həm filosof, həm də müəllim kimi öz sözünü deyib və ağsaqqallıq zirvəsinə yüksəlib".

İzzət Rüstəmovun fəaliyyətinin ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini, bir sıra orden və medallarla təltif olunduğunu xatırladan rektor qeyd edib ki, qocaman müəllim kimi o, bu gün də gənc nəslin təlim-tərbiyəsində, ixtisaslı kadrların hazırlanmasında və ölkənin ictimai həyatında fəal iştirak edir.

Daha sonra rektor Elçin Babayev İzzət Rüstəmovu fəxri fərmanla təltif edib.

Konfrans məruzələrlə davam edib.




Konfransda BDU-nun Fəlsəfə kafedrasının professoru Əziz Məmmədov “Təbiətşünaslıq fəlsəfəsinin müasir paradiqması”, AMEA-nın professoru Rəfiqə Əzimova “Fəlsəfə və Sosiologiya İnstitutunda sosioloji tədqiqatların əsas istiqamətləri”, Azərbaycan Texniki Universitetinin professoru Əyyub Kərimov “İnsan-təbiət münasibətlərinin müasir aspektləri”, BDU-nun professoru Rəfail Həsənov “Azərbaycanda sosiologiya elminin inkişaf xüsusiyyətləri”, BDU-nun professoru Rüfət Rüstəmov “Dil təbiəti və semantikası: müasir dil prosesləri” mövzularında məruzələr ediblər.

Qeyd edək ki, Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının məsləhətçi-professoru, fəlsəfə elmləri doktoru İzzət Əşrəf oğlu Rüstəmov 1932-ci ildə Gədəbəy rayonunda anadan olub.

İ.Rüstəmov 1954-cü ildə BDU-nun Tarix fakültəsinin fəlsəfə şöbəsini bitirib. 1963-cü ildə namizədlik, 1972-ci ildə doktorluq dissertasiyasını müdafiə edib, 1977-ci ildə professor elmi adı alıb.

Əmək fəaliyyətinə Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında başlayan İ.Rüstəmov 1984-cü ilədək həmin kafedrada laborant, baş laborant, müəllim, baş müəllim, dosent, professor vəzifələrində çalışıb. Daha sonra Azərbaycan Dövlət Neft Akademiyasında fəlsəfə kafedrasının müdiri və bir müddət Azərbaycan Partiya Tarixi İnstitutu direktorunun elmi işlər üzrə müavini işləyib.

1994-1999-cu illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini, 1999-2004-cü illərdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru olub.

1977-ci ildən 2019-cu ilədək Sosiologiya kafedrasının professoru kimi çalışan İ.Rüstəmov 2004-2019-cu illərdə həmin kafedraya rəhbərlik edib. 2019-cu ildən kafedranın məsləhətçi professorudur. O, eyni zamanda BDU-da və AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda Müdafiə şuralarının, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda Problem Şurasının üzvü kimi fəaliyyətini davam etdirir. Xətai Rayon Ağsaqqallar Şurasının sədridir.

Professor İ.Rüstəmov 4 monoqrafiya, 10 kitab, 170-dək elmi məqalənin müəllifidir. Onun rəhbərliyi ilə 6 nəfər elmlər, 10 nəfər fəlsəfə doktoru yetişib.

O, bir sıra orden və medallarla təltif olunub. 1991-ci ildə akademik S.İ.Vavilov adına medal, 2007-ci ildə “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunub. Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının xarici həqiqi üzvü seçilib. 2009-cu ildə “Şöhrət” ordeni, 2019-cu ildə isə “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

# Abbas Abbasov – 80



***Fevralın 3-də tanınmış filoloq, görkəmli alim, Bakı Dövlət Universitetinin İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının müdiri, Filologiya üzrə fəlsəfə doktoru, professor Abbas Abbasovun anadan olmasının 80-ci ili tamam olur.***

Professor Abbas Abbasov 1967-1972-ci Azərbaycan Dillər Universitetinin (ADU) ingilis dili fakültəsində təhsil alıb. 1975-1979-cu illərdə BDU-nun aspirantı olub, 1990-cu ildə “Azərbaycan dilində ad-feil quruluşlu sözlər” mövzusunda dissertasiya müdafiə edib və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi, 2000-ci ildə dosent elmi dərəcəsi, 2016-cı ildə professor elmi adına layiq görülüb.

1973-1982-ci illərdə BDU-nun Qərbi Avropa Dilləri kafedrasının baş laborantı, 1983-1986-cı illərdə Nigeriya Federativ Respublikasında tərcüməçi-müəllim, 1990-cı ildən Bakı Dövlət Universitetinin İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının müdiri, 2000-ci ildən Bakı Dövlət Universitetinin İngilis dili kafedrasında dosent vəzifələrində çalışıb. 2016-cı ildən BDU-nun professoru elmi adını alıb.

Ömrünün 50 ilini Bakı Dövlət Universitetinə həsr edən Abbas Abbasov elmi fəaliyyəti dövründə yüzlərlə gənc mütəxəssis kadrların yetişdirilməsində böyük rol oynamışdır. Professor A.Abbasov öz akademik və pedaqoji fəaliyyəti dövründə tələbələrə yol göstərmiş, onların böyük rəğbətini qazanmışdır.

Şərəfli və zəngin elmi ömür yolu keçmiş Professor A.Abbasov 40-dan çox elmi kitabın müəllifidir. Azərbaycanda filologiya elminin inkişafında böyük rola malik, yüzlərlə peşəkar yüksəkixtisaslı gənc yetişdirən və işini layiqincə yerinə yetirərək filologiya elmi üzrə adını tarixə qızıl hərflərlə qeyd etmişdir.

Professor Abbas Abbasovu 80 illik yubileyi münasibətilə təbrik edir, elmi-pedaqoji fəaliyyətində daim uğurlar arzulayırıq!

# Vaqif Quliyev - 65

***Fevralın 22-də Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Vaqif Quliyevin 65 yaşı tamam olur.***

Quliyev Vaqif Sabir oğlu 1978-ci ildə Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. O, 1983-cü ildə fizika-riyaziyyat elmləri namizədi, 1994-cü ildə isə fizika-riyaziyyat elmləri doktoru elmi dərəcələrini, 1997-ci ildə isə professor elmi adını alıb. O, 2014-cü ildən AMEA-nın müxbir üzvüdür.

V. Quliyev 1978-1983-cü illərdə AMEA-nın Kibernetika İnstitutunda elmi işçi, 1983-2019-cu illərdə BDU-nun Mexanika-riyaziyyat fakültəsinin Riyazi analiz kafedrasında müəllim, baş müəllim, dosent və professor, 2009-2015-ci illərdə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi, 2015-2019-cu illərdə elmi işlər üzrə direktor müavini, 2019-2021-ci illərdə BDU-nun nəzdində Tətbiqi Riyaziyyat ETİ-də baş elmi işçi vəzifələrində işləyib. 2021-ci ildən indiyədək BDU-nun nəzdində Tətbiqi Riyaziyyat ETİ-nin elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır.



V.Quliyev bircins Li qruplarında təyin olunmuş yeni lokal Morri tipli fəzalarında (ədəbiyyatda artıq Quliyev-Morri tipli fəzalar da adlandırılır) daxiletmə teoremlərini araşdırıb. Elmi işləri bircins tipli fəzalarda və bircins Li qruplarında funksional fəzalarda inteqral operatorlar nəzəriyyəsinə, çoxdəyişənli diferensiallanan funksiyalar fəzaları üçün daxilolma teoremləri nəzəriyyəsinə, Heyzenberq qruplarında təyin olunmuş funksional fəzalar üçün yaxınlaşmalar nəzəriyyəsinə, banaxqiymətli funksional fəzalar nəzəriyyəsinə, çoxölçülü kompleks oblastlarda təyin olunmuş holomorf və harmonik funksiyalar fəzaları nəzəriyyəsinə, Morri tipli fəzalarda inteqral operatorların məhdudluğu və onların diferensial tənliklər nəzəriyyəsinə tətbiqi məsələlərinə həsr olunub.

V.Quliyev 250-dən çox elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. 180-dən çox məqaləsi “Clarivate Analytics” şirkətinin “Web of Science” bazasına daxil olan impakt faktorlu jurnallarda dərc olunub və elmi əsərlərinə 1600-dən çox istinad edilib. 2011, 2017 və 2019-cu illərdə “Operators on Morrey-Type Spaces and Applications” adlı beynəlxalq elmi konfransa sədrlik edib.

V.Quliyevin rəhbərliyi altında 4 elmlər doktoru və 20 fəlsəfə doktoru hazırlanıb. O, bir neçə dəfə İtaliyada fəlsəfə doktoru dissertasiya işlərinə rəsmi opponent olub. 2015-ci ildən indiyədək Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvüdür. “AMEA-nın xəbərləri (riyaziyyat buraxılışı)” jurnalının baş redaktoru, "Applied and Computational Mathematics" jurnalının baş redaktor müavini və "TWMS Journal Pure and Applied Mathematics" jurnalının beynəlxalq redaksiya heyətinin üzvüdür. Azərbaycan Riyaziyyat Cəmiyyəti İdarə Heyətinin üzvüdür və bu cəmiyyətin əsərlərinin 2-ci cildinin məsul katibi olub.

V.Quliyev 2000-ci ildə Təhsil Nazirliyinin, 2017-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının fəxri fərmanları ilə təltif edilib. “2016-cı ilin alimi” müsabiqəsinin “Fizika, riyaziyyat və texnika elmləri” nominasiyasının və 2018-ci ildə “Clarivate Analytics” (Web of Science Awards 2018) şirkətinin “Azərbaycanda təbiət elmləri üzrə ən məhsuldar müəllif” mükafatının qalibi olub. Vaqif Quliyevi yubileyi münasibəti ilə təbrik edir, ona yeni elmi uğurlar arzulayırıq!

# Tələbə və əməkdaşların diqqətinə...

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 dekabr tarixli qərarı ilə "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndlənməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası"nda edilən dəyişikliyə əsasən, 2022-ci il 15 fevral tarixindən COVID-19-a qarşı peyvəndin 2-ci dozasının üzərindən 6 ay keçmiş yaşı 18-dən yuxarı şəxslərin "Peyvənd sertifikatı" etibarlı hesab edilməyəcək.*

Həmin tarixdən etibarən yaşı 18-dən yuxarı olan tələbələrin, həmçinin əməkdaşların 3-cü doza peyvənd sertifikatının və ya immunitetə malik olmanı təsdiqləyən sənədinin, yaxud COVID-19-a qarşı əks-göstəriş sertifikatının olması tələb edilir.

# "Əhməd Yəsəvinin Yunus Əmrə yaradıcılığına təsiri" adlı seminar keçirilib




***Fevralın 18-də* Filologiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Əhməd Yəsəvinin Yunus Əmrə yaradıcılığına təsiri" mövzusunda elmi seminar keçirilib. Özbəkistan Milli Universitetinin Özbək filologiyası kafedrasının müdiri, professor Hamidulla Baltabayevin məruzəçi olduğu elmi seminarda fakültənin professor-müəllim heyəti və tələbələri, o cümlədən Türkiyə və Özbəkistandan qonaqlar iştirak ediblər.**

"Əhməd Yəsəvinin Yunus Əmrə yaradıcılığına təsiri" adlı məruzə ilə çıxış edən H.Baltabayev Əhməd Yəsəvinin ümumtürk ədəbiyyatında xüsusi yeri və yaradıcılığı barədə danışıb. O qeyd edib ki, Türkiyədə Fuad Köprülü, Mustafa Tatcı, Mehmet Şeker, Necdet Yılmaz, Azərbaycanda isə Həmid Araslı, Kamil Vəliyev kimi alimlər Əhməd Yəsəvi və türk təkkə ədəbiyyatının qurucularından biri, təsəvvüf şairi Yunus Əmrə şeirlərində ortaq mövzu-ideya istiqamətləri ilə bağlı araşdırmalar aparıblar. Yunus Əmrə və Əhməd Yəsəvi şeirlərindəki paralelliklərə toxunan özbək alimi hər iki sənətkarın yaradıcılığında "eşq" anlayışının təqdimindən bəhs edib, ədəbi nümunələrlə fikirlərini əsaslandırıb.

Sonra mövzu ətrafında çıxışlar edilib, məruzəçiyə suallar ünvanlanıb.

BDU-nun Türkologiya kafedrasının müdiri Ramiz Əskər H.Baltabayevin yaradıcılıq yolundan, Azərbaycana sevgisindən, Azərbaycan-Özbəkistan elmi-mədəni əlaqələri çərçivəsində son illər görülən işlərdən danışıb.

# Kimya fakültəsinin tələbələri Aşqarlar Kimyası İnstitutunda istehsalat təcrübəsində

***Kimya fakültəsinin IV kurs tələbələri AMEA-nın akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun (AKİ) laboratoriyalarında 3 ay müddətinə istehsalat təcrübəsi keçəcəklər.***



Bu barədə AZƏRTAC-a Aşqarlar Kimyası İnstitutundan məlumat verilib. Tələbələrlə görüşdə institutun baş direktoru akademik Vaqif Fərzəliyev rəhbərlik etdiyi elmi müəssisənin ölkəmizdə olan ali təhsil müəssisələri, o cümlədən Bakı Dövlət Universiteti ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Bildirib ki, qarşılıqlı təcrübə mübadiləsi olaraq birgə rəhbərlik əsasında magistr, fəlsəfə doktoru hazırlığı yerinə yetirilir, bakalavr tələbələrin təcrübə keçməsi təmin olunur.



Baş direktor AKİ-nin yaranma tarixi, elmi fəaliyyət istiqamətləri, nailiyyətləri, beynəlxalq əməkdaşlıq əlaqələri, yüksəkixtisaslı kadr hazırlığı haqqında geniş məlumat verib.

Akademik bildirib ki, institutda BDU-nun Kimya fakültəsinin Neft kimyası və kimya texnologiyası kafedrasının Aşqarlar, sürtkü materialları, yağlar və soyuducu mayelər baza kafedrası fəaliyyət göstərir.

Görüşdə iştirak edən BDU-nun Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri professor İbrahim Məmmədov fakültənin AKİ ilə əməkdaşlıq səviyyəsinin qənaətbəxş olduğunu, institutun bir çox əməkdaşlarının bakalavriat və magistrantların tədris prosesinə müəllim kimi cəlb olunduğunu vurğulayıb. O, növbəti tədris illərində baza kafedrasının perspektiv fəaliyyəti, tədris prosesinin, tələbələrin istehsalat təcrübəsinin təşkilində bir sıra yeniliklərin tətbiq edilməsinin zəruriliyini bildirib.

İbrahim Məmmədov qeyd edib ki, builki istehsalat təcrübəsinə kimya və kimya mühəndisliyi ixtisasları üzrə olmaqla ümumilikdə 51 bakalavr cəlb edilib.

Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru kimya elmləri doktoru, dosent Əfsun Sucayev diqqətə çatdırıb ki, karantin rejiminin tələblərini gözləməklə tələbələr ayrı-ayrı qrup şəklində üçaylıq təcrübə müddətində institutun laboratoriyalarında cihaz və avadanlıqların iş prinsipləri, müasir fiziki-kimyəvi analiz üsulları ilə yaxından tanış olacaq, bəzi təcrübələri yaxından izləyəcəklər. Eyni zamanda, zərif üzvi sintez və aşqarlar kimyası sahəsində institut əməkdaşları tərəfindən prioritet istiqamətlər üzrə yerinə yetirilən və əldə olunan elmi tədqiqatın mühüm nəticələri ilə bağlı seminar məruzələrini dinləyəcəklər. Bu il təcrübə müddətində çalışqanlığı, elmi bilikləri ilə fərqlənən üç ən yaxşı tələbə seçilərək təşəkkürnamə ilə təltif olunacaq.

Görüşdə fikir mübadiləsi aparılıb, tələbələrin sualları cavablandırılıb.

# BDU tələbələri Prezident mükafatçıları olan gənclərlə görüşüb



***Bakı Dövlət Universiteti və "Gənclərin maariflənməsinə dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Prezident mükafatçıları olan gənclərlə görüş keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov ölkədə uğurla həyata keçirilən dövlət gənclər siyasətindən danışıb, BDU-da fəaliyyət göstərən tələbə təşkilatlarının fəaliyyəti haqqında məlumat verib və həyata keçirilən layihələrdən bəhs edib. O qeyd edib ki, BDU tələbələri ölkənin ictimai-sosial həyatında və gənclər siyasətinin həyata keçirilməsində fəal rol oynayırlar.

Daha sonra "2 fevral – Azərbaycan Gəncləri Günü" münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən mükafatlandırılan gənclər – ASAN Könüllülər Təşkilatının sədri Emiliya Bayramova və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Azər Əliyev çıxış edərək təmsil etdikləri təşkilatların məqsəd və vəzifələri haqqında tələbələrə məlumat verib, fəal gəncləri ictimai iştirakçılığın təmin edilməsində aktivliyə dəvət ediblər.

# "Xocalı soyqırımı - 30" adlı foto və kitab sərgisi




***Fevralın 22-də Bakı Dövlət Universitetinin Elmi kitabxanasının təşkilatçılığı ilə "Xocalı soyqırımı - 30" adlı foto və kitab sərgisi açılıb.***

Sərgidə Xocalı soyqırımından bəhs edən Azərbaycan, ingilis və rus dillərində 50-dək kitab nümayiş olunur. Bura "Qarabağ düyünü", "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi", "Vətən harayı", "Erməni terroru", "Xocalı soyqırımı" və bu qəbildən olan kitablar daxildir.

Sərgidə həmçinin Xocalı faciəsinin dəhşətlərini əks etdirən 30-dək tarixi fotoşəkil də təqdim olunur.

Sərgi həftənin sonunadək ziyarətçilərin üzünə açıq olacaq.

# BDU-da teleaparıcı Ceyhun Əli ilə görüş keçirilib





***Fevralın 7-də Bakı Dövlət Universitetində "ASAN Könüllüləri" Təşkilatı və BDU-nun birgə təşkilatçılığı ilə "Dinamik Gənclik Həftəsi 2" layihəsi çərçivəsində "Yeniyetmə və gənclər arasında nitq mədəniyyətinin inkişafı" mövzusunda görüş keçirilib. Görüşdə İctimai Televiziya və Radio Yayımları şirkətinin teleaparıcısı Ceyhun Əli tələbələrlə öz təcrübəsini bölüşüb.***

Görüş çərçivəsində yeniyetmə və gənclər arasında nitq mədəniyyətinin inkişafı, mövcud vəziyyət və problemlər müzakirə olunub, könüllülərin sualları cavablandırılıb.

Qeyd edək ki, görüşdə ASAN Könüllüləri ilə yanaşı BDU-nun Jurnalistika fakültəsinin tələbələri də iştirak ediblər.

# "Tariximiz və dəyərlərimiz" layihəsi davam edir

***Fevralın 8-də Tarix fakültəsində "Tariximiz və dəyərlərimiz" mövzusunda silsilə tədbirin növbəti qonağı Tarix fakültəsinin dekanı, tarix elmləri doktoru, professor İbrahim Zeynalov olub.***

Tədbirdə İbrahim Zeynalov öz təhsil illərindən, elmi-pedaqoji fəaliyyətindən bəhs edib. Tələbəlik illərindən, gənclik illərindən və elm sahəsində qazandığı uğurlardan söz açan İbrahim müəllim gənclərə öz tövsiyələrini verib.

Daha sonra tələbələr tərəfindən hazırlanan videoçarx izlənilib.

İbrahim Zeynalov tələbələrin çoxsaylı suallarını cavablandırıb.



# "Teknofest Azərbaycan" Aerokosmik və Texnologiya Festivalına hazırlıq işləri davam edir

***Bakı Dövlət Universitetində "Teknofest Azərbaycan" aerokosmik və texnologiya festivalına qatılmaq üçün hazırlıq işləri davam edir.***

**"Teknofest" Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalıdır**

**Tədbir "Türkiyə Texnologiya Komandası" - T3 Fondu və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi tərəfindən 2018-ci ildən etibarən hər il təşkil olunur.**

Universitetin Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi tərəfindən festivala 25 layihənin təqdim olunması nəzərdə tutulur. Onlardan 6 layihə 3D çap texnologiyaları, 6 layihə PUA və model peyk (uçuş texnologiyaları), 5 layihə yaşıl texnologiya, 3 layihə aqrar texnologiya, 1 layihə robototexnika, 4 layihə isə sosialyönümlü texnologiya kateqoriyası üzrə təqdim ediləcək.

Həmçinin BDU tələbələri fərdi qaydada da festivala layihə təqdim edə bilərlər.

Qeyd edək ki, "Teknofest" Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalıdır. Tədbir "Türkiyə Texnologiya Komandası" - T3 Fondu və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi tərəfindən 2018-ci ildən etibarən hər il təşkil olunur.

Azərbaycan ilk dəfə 2021-ci ildə "Teknofest"də iştirak edib. "Teknofest" aerokosmik və texnologiya festivalının Türkiyədən kənarda ilk dəfə Azərbaycanda keçirilməsi iki ölkə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür.

"Teknofest Azərbaycan" tədbirinin 2022-ci ilin 26-29 may tarixlərində "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində keçirilməsi planlaşdırılır. Festivalın təşkilatçıları "Türkiyə Texnologiya Komandası" - T3 Fondu, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyidir.

"Teknofest Azərbaycan" çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələri, "Smart Qarabağ" Hakatonu, "Take Off" Azərbaycan Startap Sammiti və "Rocket League" video oyunu üzrə Avropa Kiber İdman Kuboku təşkil olunacaq. Tədbirin sərgi hissəsində tərəfdaş qurumların məhsul və həllərinin, eləcə də gənclərin hazırladıqları prototiplərin və STEAM layihələrin nümayiş olunması, açıq səma altındakı statik ərazidə isə pilotsuz uçuş aparatları və vertolyotların sərgilənməsi nəzərdə tutulur.

Festivalın əyləncə proqramına Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin "Türk Ulduzları" və "Solo Türk" aerobotika komandalarının nümunəvi pilotaj uçuşları, böyük səhnədə incəsənət xadimlərinin çıxışları, şaquli külək tuneli, su atraksionları, uçuş simulyatorları, robotlar və s. daxildir.

# Yaz semestri həftənin 2 günü onlayn, 3 günü ənənəvi qaydada olmaqla hibrid formada təşkil edildi

***Fevralın 15-dən Bakı Dövlət Universitetində 2021/2022-ci tədris ilinin yaz semestri başlayıb. Elmi Şuranın qərarına əsasən, yaz semestri payız semestrində olduğu kimi, həftənin 2 günü onlayn, 3 günü ənənəvi qaydada olmaqla hibrid formada təşkil edilib.***

Pandemiya şəraitini nəzərə alaraq, mühazirə dərsləri "BLACKBOARD" platforması üzərindən onlayn formada, məşğələ və laboratoriya dərsləri isə ənənəvi qaydada keçiriləcək.

BDU-nun giriş qapılarında, həyətində, auditoriyalarda, sanitar qovşaqlarda, dəhlizlərdə, yataqxanalarda, yeməkxanalarda COVID-19 infeksiyası ilə mübarizə üsullarını əks etdirən maarifləndirici poster, nişan və göstəricilər yerləşdirilib, giriş qapılarında, tədris binalarının, elmi-tədqiqat institutlarının və yataqxanaların xüsusi ayrılmış yerlərində ən müasir dezinfeksiya tunelləri, turniketlər, avtomatlaşdırılmış hərarət ölçən və tibbi maskanın taxılmasına nəzarət edən cihazlar quraşdırılıb, sanitar qovşaqlarda əl dezinfeksiyaedici məhlullar və digər gigiyenik vasitələr yerləşdirilib.

Qeyd edək ki, BDU-nun 16 fakültəsində 24 mindən artıq tələbə təhsil alır.

# Yaponiyanın Qunma Universiteti elan edir: "Qunmanın qlobal çağırışı: təbiəti, ənənəsi və müasir cəmiyyəti" Onlayn Yay Proqramı 2022



***Yaponiyanın Qunma Universiteti xarici ölkələrdəki tərəfdaş universitetlərdə təhsil alan bakalavriatura, doktorantura pillələrinin tələbələri üçün onlayn yay proqramı təqdim edir.*** Proqram tələbələrə pandemiya şəraitində intensiv dil və mədəniyyət kurslarında iştirak edərək elm, mədəniyyət, dil və Qunma Universiteti haqqında biliklərə yiyələnmək imkanı verəcək. Onlayn Yay Proqramının əsas konsepsiyası Yaponiyaya təsir edən sosial problemlər, Qunmanın əhalisi, təbii mühiti, mədəniyyəti haqqında məlumat əldə etmək və regional canlanma ilə bağlı yeni layihələr həyata keçirməkdir. Kurs Yaponiyanın öyrənilməsi üzrə mühazirələr, layihə işi, qrup müzakirəsi və təqdimatdan ibarətdir. İştirakçılar üçün yapon tələbələrlə qarşılıqlı əlaqə imkanı yaradılacaq.

Mühazirələr, layihə işləri, yekun təqdimat və tələbələrin qarşılıqlı əlaqələrində iştirak etmiş bütün şəxslərə proqramın sonunda Sertifikat veriləcək. Mühazirə və layihə işləri "Zoom" platforması vasitəsilə aparılacaq. Proqramla bağlı suallar "Skype" vasitəsilə cavablandırılacaq.

# BDU-da gənc tədqiqatçılar üçün "Open Science Azərbaycan" layihəsinin seminarı keçirilib



***Fevralın 9-da Bakı Dövlət Universitetində "Open Science Azərbaycan" layihəsi çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin (AGADMC) birgə dəstəyi ilə "Open Science Azərbaycan: gənc tədqiqatçılar arasında Open Science platformasının təbliği" mövzusunda seminar keçirilib.***

Layihənin əsas məqsədi gənc tədqiqatçılara Open Science, Open Access, Open Research Date, Open İnnovation, Open Research Computation, ResearchGate, Scientific Social Network haqqında bilik və informasiyalar vermək, Open Access jurnallarına çıxış imkanları, ORCID, indeksli jurnallarda çap olunmaq üçün elmi məqalələrin hazırlanması metodologiyası haqqında məlumatlandırmaq, Open Science-in gənc alimlər arasında geniş yayılmasına nail olmaqdır.

Açılış mərasimində BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin direktor müavini Zöhrab Ağamalıyev çıxış edərək "Open Science Azərbaycan" layihəsi haqqında iştirakçılara məlumat verib.

Daha sonra təhsil nazirinin müşaviri Elnur Nəsibov çıxışında Azərbaycanın gənc alim, doktorant və magistrlarının elmi araşdırmalar, tədqiqatlar və məlumatların beynəlxalq indeksdə yayınlanmasının vacibliyinə diqqət çəkib. Ölkənin ali təhsil müəssisələrindən "Open Science Azərbaycan" layihəsində iştirak etməsi üçün gənc tədqiqatçıların seçilərək BDU-da yaradılan mərkəzdə, tədqiqatların beynəlxalq indeksdə yayınlanmasının və istifadəsinin üsulları mənimsənilməsi haqqında danışıb.

Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov ölkədə gənclər üçün yaradılan şəraitdən söz açıb. Bildirib ki, bu layihənin də tətbiqi gənc alimlərin elminin, bilik imkanlarının daha da şaxələndirilməsi, onların beynəlxalq əlaqələrinin inkişafına xidmət edəcək. Bu da sözsüz, gənclər üçün yeni imkanlar yaradacaq, onların elminin inkişafında təkan olacaq.

Seminarda AGADMC-nin eksperti, fəlsəfə doktoru Sevinc Ədilova "Açıq tədqiqat materialları. İndekslər və data (verilənlər) bazalar" mövzusunda geniş təqdimatla çıxış edib. Azərbaycanda və Qafqazda elmi konfransların vahid bazada toplanılması üçün yaradılmış AcademyGate haqqında geniş danışıb.

Sonda BDU tədqiqatçılarının sualları cavablandırılıb və Universitetin 25 nəfər gənc tədqiqatçısı xüsusi sertifikatlarla təltif olunub.

# BDU-nun əməkdaşları beynəlxalq təcrübə proqramında iştirak ediblər

***Fevralın 9-da Bakı Dövlət Universitetinin əməkdaşları Belçikanın Leuven şəhərində yerləşən "QMineral" şirkətinin təşkil etdiyi təcrübə proqramında iştirak ediblər.***

Təcrübə proqramında BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının müdiri Ələkbər Hüseynzadə və Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi Xatirə Mehtiyeva müxtəlif panel müzakirələrdə və təlimlərdə fəallıq nümayiş etdiriblər.

İştirakçılar proqram çərçivəsində kristallik toz nümunələrinin "Rentgen şüalarının difraksiyası" tədqiqat üsülu ilə keyfiyyət və kəmiyyət analizi haqqında təlimlərdə iştirak ediblər. Həmçinin, tədqiqat nəticələrinin keyfiyyətinin artırılması məqsədilə dünyanın qabaqcıl laboratoriyalarında istifadə olunan proqram təminatları ilə tanışlıq imkanı da yaradılıb. Təcrübə proqramının yekununda BDU-nun hər iki əməkdaşı şirkət tərəfindən beynəlxalq sertifikata layiq görülüb.

# "Triboelektrik nanogeneratorlar əsasında öz-özünü təmin edən sensorların hazırlanması" mövzusunda elmi seminar

***Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında növbəti elmi seminar keçirilib.***

Elmi seminarda Fizika fakültəsinin Nanomateriallarin kimyəvi fizikası kafedrasının doktorantı Orxan Güləhmədov "Triboelektrik nanogeneratorlar əsasında öz-özünü təmin edən sensorların hazırlanması" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi insanların mexaniki hərəkətləri ilə bağlı yaranan biomexaniki enerjidən istifadə olunmaqla müxtəlif portativ elektronik cihazların enerji tələbatının ödənilməsi və insanların sağlamlıq xüsusiyyətlərinin monitorinqinin aparılması üçün sensorların hazırlanması imkanlarından danışıb. O, bu cür sistemlərdə istifadə olunan polimer materialların həssaslığı, çevikliyi, onların ətraf mühitin təsirlərinə davamlılığı kimi xassələrini öyrənməyin və hazırlanan sensorların kiçik həcmə malik olmasının vacibliyini qeyd edib.

Seminarda iştirak edən Türkiyənin Eskişehir Teknik Universitetinin professoru Nezihe Ayasla gələcəkdə birgə layihələrin həyata keçirilməsi müzakirə olunub.

Sonda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU alimlərinin həmmüəllifi olduğu məqalələr impakt faktorlu jurnalda dərc olunub

***Bakı Dövlət Universitetinin Sənaye kimyası ETL və Mikrobiologiya və virusologiya ETL-in əməkdaşları - Ülviyyə Həsənova, Ələkbər Hüseynzadə, Hacı Vahid Axundzadə və Xudaverdi Qənbərovun həmmüəllifi olduğu "2,4,6-trimetoksibenzaldehid əsaslı dihidropirimidin törəmələrinin sintezi, kristal quruluşu və antibakterial tədqiqatları" adlı məqalə Web of Science bazasında Q3 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olan Journal of Molecular Structure (IF = 3.196) jurnalında çap olunub.***

Məqalədə 5-asetil-6-metil-4 əmələ gəlməsi ilə serium ammonium nitratın (CAN) iştirakı ilə daha da regioselektiv oksidləşən 2,4,6-trimetoksibenzaldehid əsasında dihidropirimidinin yeni törəmələrinin sintezi haqqında məlumat verilib. Hər iki yeni birləşmənin strukturları NMR, kütləvi spektroskopiya üsulları ilə tədqiq edilib. Dihidropirimidin birləşməsinin strukturu rentgen difraksiya üsulu ilə tədqiq olunub və kristal qablaşdırmasında molekulyar qarşılıqlı əlaqəni başa düşmək üçün Hirshfeld səthi və kontaktların zənginləşdirilməsi təhlilləri aparılıb. Sintez edilmiş birləşmələrin bioloji aktivliyi qram-mənfi A.baumanii, E.coli, P.aeruginosa və K.pneumoniae və qram-müsbət S.aureus bakteriyalarına qarşı tədqiq edilmişdir.

***

***Biologiya fakültəsinin Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllifi olduğu "2010-cu ildən 2019-cu ilə qədər 29 xərçəng qrupu üçün xərçəng xəstəliyi, ölüm, ömrün itirilmiş illəri, əlilliklə yaşanan illər və əlilliyə uyğunlaşmış həyat: qlobal xəstəlik yükü tədqiqatı üçün sistemli təhlil, 2019" ("Cancer incidence, mortality, years of life lost, years lived with disability, and disability-adjusted life years for 29 cancer groups from 2010 to 2019: asystematic analysis for the global burden of disease study 2019") adlı məqalə Web of Science bazasında Q1 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olan (IF: 31.777, Q1) JAMA Oncology jurnalında dərc edilib.***

Məqalədə xərçəng xəstəliyinin yaranmasından, bu istiqamətdə mümkün risk faktorlarının araşdırılmasından, uzun illər boyu xərçəng xəstəliyindən əziyyət çəkən müxtəlif əhali qruplarının yerli və beynəlxalq səviyyədə tədqiqindən bəhs edilir. Təqdim edilən elmi məqalədə alınmış nəticələr xərçəng xəstəliyinin vaxtında proqnozlaşdırılmasında, ölüm hallarının azaldılmasında tətbiq edilə bilər.

***

***Bakı Dövlət Universitetinin Cəbr və həndəsə kafedrasının dosenti Vaqif Qasımovun həmmüəllifi olduğu "Differential Equations on Manifolds and Mathematical Physics" (Çoxobrazlılar üzərində diferensial tənliklər və riyazi fizika) adlı kitab "Springer" nəşriyyatında nəşr edilmişdir.***

Kitab M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin professoru Boris Sterninin xatirəsinə həsr olunmuşdur. Vladimir M.Manuilov (Rusiya), Aleksandr S.Mishchenko (Rusiya), Vladimir E.Nazaikinskii (Rusiya), Bert-Wolfgang Schulze (Almaniya) və Weiping Zhang (Çin) kimi məhşur alimlərin elmi redaktorluğu ilə çap olunmuş kitab 20 fəsildən ibarətdir.

Vaqif Qasımovun müəllifi olduğu "Hochshild's Method of Describing the Mackenzie Obstruction to Construction of a Transitive Lie Algebroid" adlı fəsil çoxobrazlılar üzrə diferensial tənliklər və riyazi fizikanın müasir problemlərinə həsr edilmişdir. İşdə Li cəbroidlərinin Makkenzi obstruksiyalarının struktur təbiəti öyrənilmiş və onun kohomoloji qrupu hesablanmışdır.

# İki universitetin birgə təşkilatçılığı ilə "Qalib ölkənin qalib gəncliyi" mövzusunda tədbir keçirilib

Fevralın 7-də Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universiteti arasında əməkdaşlıq çərçivəsində cari tədris ili üzrə qəbul edilmiş birgə fəaliyyət planına əsasən hər iki ali təhsil müəssisəsinin Tələbə Gənclər Təşkilatlarının təşkilatçılığı ilə "Qalib ölkənin qalib gəncliyi" adlı onlayn tədbir keçirilib.

Tədbirdə çıxış edən BDU Tələbə Gənclər Təşkilatının Hüquq fakültəsi üzrə sədri Firavan Əlizadə ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətindən bəhs edib, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun xalqımıza bəxş etdiyi möhtəşəm zəfərdən danışıb. O, çıxışında Azərbaycan gənclərinin müxtəlif sahələrdə beynəlxalq müstəvidə ölkəmizi uğurla təmsil etdiyini bildirib. Daha sonra çıxış edənlər BDU TGT-nin Sosial elmlər və psixologiya fakültəsi üzrə sədri Cəfər Gözəlov, MDU-nun Təhsil fakültəsinin I kurs tələbəsi Tamella Qurbanova, Təhsil fakültəsinin II kurs tələbəsi Leyla Manafova və Mühəndislik fakültəsinin III kurs tələbəsi Hüseyn Əliyev gənclərə göstərilən dövlət qayğısından danışıb, məhz Prezident cənab İlham Əliyevin hakimiyyəti dövründə yetişən qəhrəman gənclərin sayəsində müqəddəs torpaqlarımızın işğaldan azad olunduğunu qeyd ediblər.

Tədbirdə hər iki təhsil ocağının fəal gəncləri gələcəkdə keçiriləcək birgə layihələr haqqında müzakirə aparıb, müştərək tədbirlərin əhəmiyyətini vurğulayıblar.

# BDU-da "İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub

***Bakı Dövlət Universitetində 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbirdə "İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub.***

Müsabiqə Komissiyasının qərarına əsasən, Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli humanitar və ictimai elmlər üzrə, Kimya fakültəsinin əməkdaşı Gülnar Süleymanova isə təbiət və texnika elmləri üzrə ən yüksək nəticə göstərərək müsabiqənin qalibi olublar. Müsabiqənin qalibləri diplom və hər biri 2 000 (iki min) manat pul mükafatı ilə təltif ediliblər.

BDU artıq 2 ildir ki, ənənəvi olaraq, 2 fevral - Gənclər günü münasibətilə "İlin gənc alimi" müsabiqəsi elan edir və müsabiqənin qalibləri "Gənclər Günü"ndə açıqlanır. Mütəmadi olaraq keçirilməsi nəzərdə tutulan "İlin gənc alimi" mükafat müsabiqəsinin məqsədi BDU-nun yaşı 35-ə qədər olan, il ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyəti ilə fərqlənmiş magistrant, doktorant və əməkdaşlarının mükafatlandırılmasıdır.

# "Zəfər kuboku" turnirinin üçüncüsü olan BDU-nun futzal komandası ilə görüş

***Fevralın 8-də Bakı Dövlət Universitetində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Zəfər Günü"nə həsr edilmiş futzal yarışlarında üçüncü yeri qazanan BDU komandası ilə görüş keçirilib.***



Görüşdə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev komanda üzvlərini qazanılan qələbə münasibətilə təbrik edib, 33 ali və orta ixtisas təhsil müəssisəsi arasında keçirilən və "Zəfər Günü" nə həsr olunmuş turnirin əhəmiyyətini vurğulayıb. Prorektor BDU-da idman və tələbələrin fiziki hazırlığı, tələbələrin əldə etdiyi idman uğurları haqqında danışıb, komanda üzvlərinə gələcək yarışlarda uğurlar arzulayıb. Daha sonra çıxış edənlər, İdman-sağlamlıq Mərkəzinin direktor müavini Akif Atakişiyev, məşqçi Cavid Rəhimov və komandanın kapitanı Ədalət Qafarlı göstərilən diqqətə və yaradılan şəraitə görə Universitet rəhbərliyinə təşəkkürlərini bildirib, bundan sonrakı yarışlarda da uğurla iştirak edəcəklərini və Universitetin adını daim uca tutacaqlarını ifadə ediblər.

Sonda xatirə şəkli çəkilib, komanda üzvlərinə hədiyyələr təqdim olunub.

# Tələbələrimiz Geologiya Muzeyində olub

***Geologiya fakültəsinin bir qrup tələbəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tərkibində fəaliyyət göstərən Azərbaycan Geologiya Muzeyində olub.***



Muzeyin direktoru Kəmalə İmamverdiyeva eksponatlar haqqında tələbələrə məlumat verib. Bildirib ki, muzey 1969-cu ildə görkəmli geoloq İvan Sitkovskinin şəxsi kolleksiyası əsasında Azərbaycan Geologiya İdarəsinin nəzdində təşkil edilib. Həmin tarixdən etibarən ölkə geoloqlarının elmi tədqiqat işləri zamanı tapdıqları müxtəlif daşlar sistemləşdirilərək xüsusi bölmələrə yerləşdirilib. 2008-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə muzeyin strukturu müasir tələblər səviyyəsində yenidən qurulub. Əsaslı təmirdən sonra 2010-cu il dekabrın 25-də muzeyin açılışı keçirilib.

Muzeydə Azərbaycandan və dünyanın müxtəlif yerlərindən eksponatlar qorunur. Burada Antarktida, Sakit okean, Kola yarımadası, Uzaq Şərq, Afrika, Cənubi Amerikadan eksponatlar yer alıb. Bundan başqa, Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə dünyanın müxtəlif zirvələrinə Azərbaycan-Antarktida, Azərbaycan-Afrika (Klimancaro) və Azərbaycan-Cənubi Amerika (Akonkaqua) elmi ekspedisiyaları təşkil edilib. Həmin yerlərdən əldə olunan daşlar da muzeydə nümayiş olunur.

Muzeyin əsas fəaliyyət istiqaməti geoloji-kəşfiyyat işlərinin təbliği və təşviqidir.

# Kimya fakültəsinin tələbələri qrant müsabiqəsinin qalibi olublar

Bakı Dövlət Universitetinin tələbələri - Gültəkin Mehrəliyeva və Samirə İsmayılova, Ruslan Quliyev Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə birgə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən təşkil edilmiş yerli qrant müsabiqəsi olan Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin qalibi olublar. Elmin İnkişafı Fondunun elan etdiyi müsabiqəyə "Kimya elmləri" sahəsi üzrə təqdim olunan layihələrdən ikisi yüksək qiymətləndirilib. Bunlardan biri BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının tələbələrinin və ADNSU-nun əməkdaşının təqdim etdiyi layihə olub.

# "Azərbaycanda çar Rusiyasının müstəmləkəçi rejiminin qurulması və onun özünəməxsus xüsusiyyətləri" mövzusunda elmi seminar

***Fevralın 22-də Tarix fakültəsində "Azərbaycanda çar Rusiyasının müstəmləkəçi rejiminin qurulması və onun özünəməxsus xüsusiyyətləri" mövzusunda elmi seminar keçirilib.***

Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova 1828-ci ildə Rusiya imperiyası ilə Qacarlar dövləti arasında imzalanan və Azərbaycan torpaqlarının Araz çayı boyunca iki yerə parçalanması ilə nəticələnən Türkmənçay müqaviləsinin ildönümünə təsadüf edən elmi seminarın mövzusunun aktuallığı haqqında qısa məlumat verib.



Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri Mehman Abdullayev "Azərbaycanda çar Rusiyasının müstəmləkəçi rejiminin qurulması və onun özünəməxsus xüsusiyyətləri" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə XIX əsrin ilk onilliklərində Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda müstəmləkəçi siyasətinin əsas istiqamətləri, rus müstəmləkəçiliyinin Avropa müstəmləkə sistemindən fərqi arxiv fondlarından əldə edilən yeni sənədlər əsasında təhlil edilib.

M.Abdullayev həmçinin çar Rusiyasının bölgədə xristian dayağı yaratmaq məqsədi ilə həyata keçirdiyi köçürmə siyasəti və onun nəticələri, Azərbaycanın təbii sərvətlərini mənimsəməsi sahəsindəki addımları barədə də danışıb.

Elmi seminarda 44 günlük Vətən müharibəsində əldə olunan tarixi qələbənin əhəmiyyəti, Qarabağın 30 illik işğaldan azad olunmasının Azərbaycan tarixində yeri və rolu məsələsi də təhlil olunub.

Elmi seminar müzakirələrlə davam edib.

# Vətənin tarixi - qan yaddaşıdır

***Qan yaddaşımızı vərəqlədikdə vətən uğrunda canından keçən şəhidlər yada düşür. Onlar özlərini vətənə, torpağa, elə, obaya fəda etdilər. Azərbaycanın ərazi bütövlüyünün bərpasına görə hamımız torpaq altında uyuyan şəhidlərimizə borcluyuq. Vətənimiz tarix boyu daim öz müstəqilliyi və azadlığı uğrunda yadellilərlə mübarizə aparıb, varlığını qorumaq üçün min bir çətinliyə sinə gərib. Düşmənlərlə mübarizədə igidlərimiz şəhid olub, dinc sakinlər - qadınlar, qocalar və uşaqlar amansızcasına qətlə yetirilib.***




Yaxın tariximizin ən acı səhifələrindən biri - Xocalı soyqırımı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal etdi, şəhərdə etnik azərbaycanlılara qarşı dəhşətli soyqırımı törədildi.

Fevralın 25-də gecə saatlarından Xocalı toplardan atəşə tutulmağa başlanmışdı. İlk növbədə yaşayış massivində yerləşən kazarma və müdafiə nöqtələri dağıdılmışdı. Şəhərin güllələbaranı nəticəsində dinc əhalinin müəyyənləşdirilməmiş miqdarda əmlakı dağılıb. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən güllələsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Erməni vəhşiliklərinin əsl sübutu elə Xocalı faciəsidir.

Xocalının müdafiəsində Azərbaycanın yeddi Milli Qəhrəmanı - Ələsgər Novruzov, Əlif Hacıyev, Allahverdi Bağırov, Tofiq Hüseynov, Aqil Quliyev, İnqilab Hüseynov, Fuzuli Rüstəmov iştirak ediblər.

Ələsgər Novruzov Xocalının ilk özünümüdafiə dəstələrinə, sonralar isə batalyonun döyüşçülərinə atıcılıq məharətini, silahlardan istifadə etmək bacarığını öyrədənlərdən biri olub. Xocalı müdafiə komitəsinin üzvləri ilə birlikdə ermənilərin atəş nöqtələrinin dağıdılması, erməni quldur dəstələrinin məhv edilməsi üçün əməliyyat planlarının hazırlanması və həyata keçirilməsində fəal iştirakçı olub.

Əlif Hacıyev və rəhbərlik etdiyi dəstə Xocalıda göstərdikləri xüsusi qəhrəmanlıqlarına görə yaddaşlara həkk olub. 1992-ci ilin fevralın 25-də Əlif Hacıyev dəstəsi ilə səhər saat beşə qədər düşmənə ciddi müqavimət göstərsə, döyüşlər qeyri-bərabər qüvvələr arasında getsə də, Əlif Hacıyev gücünə, etibar və etimadına inanıb geri çəkilmədi. Qanlı döyüş gecəsində Xocalı sakinlərinin bir hissəsini sağ-salamat Ağdamın Şelli kəndinə çatdıra bildi. Növbəti cəhddə isə düşmənin gülləsi Əlifin qəlbinə sancıldı. Cəsədi 5 gün böyürtkən kolunun dibində qaldıqdan sonra gizli şəkildə oradan çıxarıldı.

Əlif Hacıyevin həyatından bəhs edən "Qırmızı Ləçəklər" romanında digər qəhrəmanlar haqqında məlumat verilir. Tofiq Hüseynovun təşəbbüsü və komandirliyi ilə yaradılan "Xocalı Özünümüdafiə batalyonu" da fevralın 25-dən 26-na keçən gecə düşmənlə axıra qədər vuruşub, dinc əhalinin xeyli hissəsinin təhlükəsiz yerə çıxmasını təmin edib. Axırıncı gülləsinə qədər döyüşən Tofiq Hüseynov sonda qumbara ilə özünü partladaraq 10 nəfərə yaxın erməni yaraqlısını da məhv edib.

Yaralıların və meyitlərin daşınmasında fədakarlıq göstərən İnqilab İsmayılov da günahsız insanların qısasını almaq üçün Ağdam ətrafındakı döyüşlərdə qəhrəmancasına döyüşüb. Daşbaşı yüksəkliyini götürmək üçün 25-dək erməni əsgərini məhv edib, özü də qəhrəmancasına həlak olub.

Aqil Quliyev qadınları Xocalıdan çıxarmaq məqsədilə 11 döyüşçüsü ilə mühasirəni yarmaq üçün erməni postuna yaxınlaşıb. 21 erməni quldurunu məhv etdikdən sonra Aqil Quliyev və döyüş yoldaşları da yaralanır. Aqil Quliyevin təcili cərrahiyyə əməliyyatına ehtiyacı olsa da, nə onu döyüş bölgəsindən çıxarmaq mümkün olub, nə də yoldaşlarını. Erməni əsgərlərinin pusqusuna düşən dəstə üzvləri şəhid olublar.

Füzuli Rüstəmov isə qız-gəlinlərin ermənilərə əsir düşməməsi üçün Kətik meşəsində, Naxçıvanlı kəndi yaxınlığında döyüşüb. İki dəfə qadınları, uşaqları, qocaları erməni hərbçilərinin mühasirəsindən çıxararaq Ağdama göndərə bilib. Üçüncü dəfə ağır yaralanıb. Ağdam hərbi hospitalına çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərərək canından keçən əsgər və zabitlərimizi heç zaman unutmayacağıq. Nəhayət, 30 illik həsrətdən sonra müzəffər ordumuz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirdi.

44 gün sürən müqəddəs Vətən Müharibəsində qalib Azərbaycan Ordusu Qarabağı işğaldan azad etdi. Bu qələbə tariximizə qızıl hərflərlə yazıldı.

***İmanova Nigar***
*Jurnalistika fakültəsinin*
*II kurs tələbəsi*

# Coğrafiya fakültəsində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş tədbir

***Fevralın 25-də Coğrafiya fakültəsində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə Coğrafiya fakültəsinin dekanı dosent Şəkər Məmmədova çıxış edərək faciənin qısa tarixi, yaddaşlarda buraxdığı izlər, ermənilərin məkrli niyyəti və Vətən müharibəsində əldə olunan şanlı zəfərdən bəhs edib. Tarix fakültəsinin professoru Sevda Süleymanova, çıxışı zamanı ermənilərin Qafqaza yerləşdirilməsi, azərbaycanlılara qarşı törədilən qətliamlar, Xocalı soyqırımı zamanı igidliklə şəhərin müdafiəsi üçün çalışmış milli qəhrəmanlar Əlif Hacıyev və Tofiq Hüseynovdan söz açıb. Sonra BDU THİK sədri Hacıbaba Mustafayev törədilən qətliamların beynəlxalq insan hüquqlarına zidd olmasından, soyqırımın gənc nəsil və tələbələrə tanıdılmasından söz açaraq mənfur düşmənin hələ də öz xislətindən əl çəkmədiyini vurğulayıb. Geodeziya və kartoqrafiya kafedrasının müdiri professor Məqsəd Qocamanov çıxışı zamanı işğal dövrünün və bu günün reallıqlarını müqayisəli təhlil edərək son illərdə ölkəmizdə yeni ordu quruculuğuna, peşəkar əsgər-zabit heyətinin hazırlanmasına yönəlmiş siyasəti, həmçinin diplomatik sahədə əldə olunan uğurları qeyd edib.

Daha sonra tələbələrdən Nazilə Əsgərova Xocalı faciəsi və baş verən qətliamlar, Leyla Şıxıyeva isə Xocalı faciəsinə beynəlxalq müstəvidə hüquqi-siyasi qiymətin verilməsi barədə məruzə ilə çıxış ediblər. Sonra Amil Məmmədovun tarda müşaiyəti ilə Ziba Həsənova və Nurlan İbrahimxəlilov Xocalı soyqırımı ilə bağlı şeirlər, Zəki Kərimli isə Albert Aqarunovun ölməz ruhuna həsr etdiyi rep parçasını səsləndirib.

# Xocalının naləsi

*Neçə körpə ümid,*
*neçə həyat çırağı,*
*Onlara qənim*
*kəsiləndə, namərd*
*gülləsi.*
*Göy ağladı, dağ*
*ağladı, torpaq ağladı*
*Ağladanda şeytanı,*
*Xocalının naləsi.*

*Ananın fəryadından,*
*utanırdı təbiət,*
*Gülün üstündən,*
*daha bülbül uçmadı.*
*Babalarımızın bağı,*
*qan ilə boyanandan,*
*Bir daha o bağlarda,*
*bir qızılgül açmadı.*

*Şuşa dağların,*
*titrətdi Xocalının*
*dağı,*
*Namərdlərin bıçağı*
*vətənimizi dağladı.*
*Al-əlvan idi Şuşa,*
*Laçın, Füzuli,*
*Xocalı,*
*O gündən bəri*
*Qarabağ qara*
*bağladı.*

*Ümidləri, arzuları,*
*gül ətrinə bərabər,*
*Neçə ana toy edə*
*bilmədi övladına.*
*İnsan insan olana*
*edərmi belə zülm?!*
*Düşmənimiz ləkə idi*
*insanlığın adına.*

*Bu faciəyə, göz*
*utanır yaş axıtmağa,*
*Nalələr qulaqda,*
*“vay Xocalı, can*
*Xocalı”*
*Bir vaxt hər tərəfi*
*gül olan şəhərə,*
*İndi deyilir “Yastığı*
*kədər, yorğanı qan*
*Xocalı”*

*Dözmədi ürəyimiz,*
*dözməz oğul qeyrəti,*
*Cənnətdə axı niyə*
*yasa batsın*
*şəhidlər?!*
*Dedi vətənin oğlu*
*“qisas vaxtı*
*çatıbdır”,*
*Biz daha qayıtmışıq,*
*rahat yatsın*
*şəhidlər.*

***Erkin Cəlilov***
*Sosial elmlər və*
*psixologiya*
*fakültəsinin I kurs*
*tələbəsi*

# BDU Tələbə Həmkarlar İttifaqı Komitəsi ingilis dilində “Xocalı - insanlığa qarşı cinayət” sənədli filmi hazırlayıb

***Fevralın 25-də Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən hazırlanan “Xocalı – insanlığa qarşı cinayət” (“Khojaly - crime against humanity") sənədli filminin təqdimatı keçirilib.***

Təqdimatda BDU-nun professor-müəllim heyəti və tələbələri iştirak edib.

Filmin rejissoru BDU THİK sədri Hacıbaba Mustafayevdir. O, çıxışında insanlığa qarşı ən böyük cinayətlərdən olan Xocalı soyqırımı haqqında sənədli film beynəlxalq film festivallarında iştirak edəcəyini bildirib.



Daha sonra film nümayiş etdirilib. Xocalı soyqırımı zamanı baş vermiş hərbi cinayətlər sənədli filmin əsas mövzusudur. Filmdə Xocalı faciəsinin dəhşətləri şahidlərin sözləri ilə tamaşaçılara təqdim olunur.

Sənədli filmin sonunda Xocalı faciəsinin dəhşətlərini bütün dünyaya çatdırmaq üçün BMT-nin 6 rəsmi dilində sosial mesaj verilir.

# BDU Avropa Universitetləri Assosiasiyasına üzv qəbul edilib

**Bakı Dövlət Universiteti Avropa Universitetləri Assosiasiyasının tam hüquqlu üzvü qəbul edilib. Bununla da BDU Avropanın qabaqcıl universitetlərini birləşdirən platformaya qoşulub**

***BDU**-da tədrisin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması və Universitetin beynəlxalq rəqabətliliyinin artırılması istiqamətində mühüm addımlar atılır. Dünyanın nüfuzlu beynəlxalq elm və təhsil qurumlarında iştirakını təmin etmək məqsədilə ardıcıl işlər görülür.*

BDU-nun EUA-ya tam hüquqlu üzv olması məhz bu məqsədlərin həyata keçirilməsinə xidmət edəcəkdir. EUA-ya üzvlük Avropanın ali təhsil, elm və innovasiyalar üzrə qabaqcıl təcrübəsindən yararlanmağa və yeni əməkdaşlıqların qurulmasına təkan verəcəkdir.

17 milyon tələbənin təhsil aldığı, 48 ölkənin 800-dən çox universitetinin birləşdiyi Avropa Universitetləri Assosiasiyası qlobal dayanıqlı inkişafda əhəmiyyətli rol oynayan qurumdur. Bir sıra beynəlxalq təşkilatlarla davamlı qarşılıqlı əlaqə vasitəsilə Avropa universitetlərinin müstəqil təşəbbüslərinin, onların fəaliyyətinə təsir edəcək qərarların qəbul edilməsində mövqelərinin eşidilməsini təmin edir. Həmçinin EUA universitetlərə beynəlxalq layihə və tədbirlərdə iştirak etməklə təcrübə mübadiləsi imkanları yaradır.

# BDU-da "Açıq hava turizm fəaliyyətində beynəlxalq təcrübənin öyrənilməsi" mövzusunda elmi seminar

***Fevralın 28-də Coğrafiya fakültəsində "Açıq hava turizm fəaliyyətində beynəlxalq təcrübənin öyrənilməsi" mövzusunda elmi seminar keçirilib.***

Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının doktorantı Kərim Hüseyn-zadə elmi məruzə ilə çıxış edib.

Kərim Hüseyn-zadə mövzunun aktuallığını, açıq hava turizm növlərinin xüsusiyyətlərini, əhəmiyyətini qeyd edərək, bu turizm fəaliyyətində tələbin qiymətləndirilməsi, koronavirusun beynəlxalq turizm bazarına təsiri, həmçinin müxtəlif statistik mənbələrdən əldə edilən məlumat və qrafiklərin nəticələri haqqında məlumat verib. O, Azərbaycanda açıq hava turizm fəaliyyətlərinin inkişaf üsullarının müəyyənləşdirilməsi, onların elmi-nəzəri və praktiki əhəmiyyəti haqqında təkliflər irəli sürüb.

Fakültənin dekanı Şəkər Məmmədova məruzəçinin 2019-cu ildə BDU-nun Coğrafiya fakültəsinin turizm və otelçilik ixtisası üzrə magistratura pilləsini fakültə birincisi olaraq fərqlənmə diplomu ilə bitirdiyini, təhsil aldığı müddət ərzində "Mevlana" proqramı çərçivəsində Türkiyə Respublikasının Ali Təhsil Nazirliyinin tam təqaüdünə layiq görülərək Kastamonu Universitetinin turizm və otel menecmenti magistr proqramında təhsili aldığını və fərqlənmə diplomuna layiq görüldüyünü, hazırda doktorantura təhsili müddətində Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin həyata keçirdiyi layihə çərçivəsində Antalya şəhərinin Alanya turizm bölgəsində elmi-praktik fəaliyyətlə məşğul olduğunu seminar iştirakçılarının nəzərinə çatdırıb.



Seminarda mövzu ilə bağlı müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# BDU TGT "İlin Tələbə Gənclər Təşkilatı" seçilib

***Fevralın 1-də Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) tərəfindən 2 Fevral - Gənclər Gününə həsr olunmuş Tələbə Gənclər Təşkilatlarının (TGT) "I Strateji Planlaşdırma Forumu" keçirilib.***



Forumun keçirilməsində əsas məqsəd ATGTİ və TGT-lərin uzunmüddətli dayanıqlı inkişaf strategiyasının müəyyən olunması, inkişaf üçün düzgün planlanma aparılmasına dəstək olmaqdır.

Ölkənin aparıcı təhsil müəssisələrinin də təmsil olunuğu Forumda 2021-ci il ərzində həyata keçirilən layihələrdən danışılıb, ən fəal tələbə təşkilatları müəyyənləşdirilib. Bakı Dövlət Universitetinin (BDU) Tələbə Gənclər Təşkilatı 2021-ci ildə ölkədə ictimai və sosial əhəmiyyətli tədbirlərin həyata keçirilməsində "İlin Tələbə Gənclər Təşkilatı" nominasiyasına layiq görülüb.

Bu münasibətlə BDU TGT kollektivini təbrik edir, gələcək fəaliyyətlərində yeni-yeni uğurlar arzu edirik.

# Tələbələrimiz qrant müsabiqəsinin qalibi olublar

***Bakı Dövlət Universitetinin tələbələri Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə birgə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən təşkil edilmiş yerli qrant müsabiqəsi olan Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin qalibi olublar. Elmin İnkişafı Fondunun elan etdiyi müsabiqəyə "Kimya elmləri" sahəsi üzrə təqdim olunan layihələrdən ikisi yüksək qiymətləndirilib. Bunlardan biri BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının tələbələrinin və ADNSU-nun əməkdaşının təqdim etdiyi layihə olub.***

Universitetin tələbələri "Yeni azometin əsaslı virus əleyhinə agentlərin dizaynı, Gaussian/Maestro proqramları ilə molekulyar səviyyədə tədqiqi və in vitro öyrənilməsi" mövzusunda layihə ilə müsabiqədə qalib olublar. Layihənin rəhbəri ADNSU-nun müəllimi, kimya üzrə fəlsəfə doktoru Nərminə Quliyevadır. Layihə heyətinə BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasında elmi-tədqiqat işi yerinə yetirən magistrantlar Gültəkin Mehrəliyeva və Samirə İsmayılova, bakalavr tələbə Ruslan Quliyev daxildir.

Layihədə Ag və $TiO_2$ nanohissəcikləri ilə modifikasiya olunmuş yeni azometinlər əsasında virus əleyhinə agentlərin dizaynı, in vitro öyrənilməsi və Gaussian/Maestro proqramları ilə molekulyar səviyyədə tədqiqi həyata keçiriləcəkdir. Layihə BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasında və ADNSU-nun Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya Elmi-Tədqiqat İnstitutunda yerinə yetiriləcəkdir.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 28.02.2022

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08